

Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər

№ 26 (817) ▪ 6 iyul 2016 www.vergiler.az Qiyməti: 55 qəp.

# Regionlar qeyri-neft sektorunun əsas ünvanıdır





Prezident İlham Əliyevin təşəbbüsü və rəhbərliyi ilə həyata keçirilən iqtisadi siyasətin əsas istiqamətlərindən biri də regionların inkişafıdır. Bunun ilkin səbəbi təxminən 13-15 il əvvəl ölkənin ümumi inkişafında bölgələrin payının və rolunun az olması idi. Odur ki, cənab İlham Əliyev gözlənilən neft gəlirlərinin qeyri-neft sektorunun, o cümlədən regionların sosial-iqtisadi inkişafına yönəldilməsinin vacibliyini önə çəkirdi. Bu baxımdan 2004-cü ildən etibarən bölgələrin inkişafı dövlətin iqtisadi siyasətinin əsas istiqamətlərindən birinə çevrildi.

Həmin ildən başlayaraq hər biri 5 illik dövrü (2004-2008, 2009-2013 və 2014-2018-ci illəri) əhatə edən 3 regional inkişaf dövlət proqramı qəbul olundu. Elə ilk dövlət proqramının icrasından sonra ölkənin makroiqtisadi göstəricilərində regionların xüsusi çəkisi xeyli yüksəldi. Bu, ilk növbədə, yerlərdə sahibkarlığın inkişafı, yeni emal müəssisələrinin istifadəyə verilməsi, sosial infrastrukturun yenidən qurulması, bölgələrin xammal potensialının hərəkətə gətirilməsi və s. tədbirlər hesabına mümkün oldu. Xatırladaq ki, regionların sosial-iqtisadi inkişafına dair ilk Dövlət Proqramının icra olunduğu 5 il (2004-2008) ərzində ölkə üzrə ÜDM istehsalı 5, qeyri-neft sektorunda məhsul istehsalı 1,8 dəfə artmış, 2008-ci ilin yekunlarına görə ümumi daxili məhsulda qeyri-dövlət bölməsinin payı 84,5 faizə çatmışdır. Bunlardan əlavə, həmin dövrdə qeyri-neft sektoruna yatırılan sərmayə 6,2 dəfə artaraq ümumi investisiyaların strukturunda 2003-cü ildəki 26,8 faizdən 69 faizə yüksəlmişdir. Xalqın sosial vəziyyətinə gəldikdə isə, 2003-2008-ci illərdə əhalinin gəlirləri 4 dəfə artmış, yoxsulluğun səviyyəsi 45 faizdən 13,2 faizə enmişdir. O illər Azərbaycanda bütün regionlar üzrə 27,5 min yeni müəssisə fəaliyyətə başlamış, 547,5 mindən çox daimi iş yeri açılmışdır.

2009-2013-cü illəri əhatə edən regionların sosial-iqtisadi inkişafına dair ikinci Dövlət Proqramının da nəticələrinin xüsusi çəkisi ölkənin ümumi makroiqtisadi göstəricilərində kifayət qədər böyük olmuşdur. Təkcə bir faktı nəzərə çatdıraq: sözügedən dövlət proqramının icra olunduğu ilk ildə sənədin icrasını şəxsi nəzarətinə götürmüş Prezident İlham Əliyev bölgələrə 27 dəfə səfər edərək ən müxtəlif təyinatlı 105 obyektin açılışını etmiş, 14 obyektin təməlini qoymuşdur. Ümumiyyətlə, hər iki proqramın icra olunduğu 10 il ərzində Azərbaycanda ÜDM istehsalı 3,4, qeyri-neft sektoru 2,6, əhalinin gəlirləri 6,5 dəfə artmış, yoxsulluğun səviyyəsi 5,3, işsizlik 5 faizə enmişdir. 2004-2013-cü illərdə ölkədə 56 minə yaxın müəssisə fəaliyyətə başlamış, 900 mindən çox daimi iş yeri yaradılmışdır. Bu müddətdə yalnız regionlarda məhsul buraxılışı 3,2, o cümlədən sənaye məhsulu istehsalı 3,1, orta aylıq əməkhaqqı 7,3 dəfə artmışdır. 10 il ərzində bölgələrdə 2708 məktəb, 38-i mərkəzi xəstəxana olmaqla 500-dən çox səhiyyə, 700-ə yaxın mədəniyyət, 250-dən artıq idman və gənclər obyekti tikilmiş və ya əsaslı təmir olunmuşdur.

Hazırda üçüncü dövlət proqramı icra edilir. Artıq sənədin qəbulundan 2 il ötüb və müəyyən nəticələr məlumdur. Əvvəlcədən qeyd edək ki, bu dövlət proqramında da bölgələrin potensialından daha səmərəli istifadə etməklə qeyri-neft sektorunun inkişafı, kommunal xidmət və digər infrastruktur obyektlərinin, eləcə də yeni emal və istehsal müəssisələrinin yaradılması, mövcud müəssisələrdə istehsalın genişləndirilməsi, rabitə və informasiya texnologiyalarının tətbiqinin sürətləndirilməsi, sosial infrastrukturun yaxşılaşdırılması, o cümlədən müasir standartlara uyğun təhsil, elm, səhiyyə, mədəniyyət və idman obyektlərinin inşası, yenidən qurulması, əlillər və şəhid ailələri üçün yaşayış binalarının tikintisi üzrə kompleks tədbirlər nəzərdə tutulmuşdur.

Bu dövlət proqramının da icrası Prezident İlham Əliyevin şəxsi nəzarəti altındadır. Odur ki, sənədin qəbulundan ötən iki il ərzində də bölgələrdə davamlı inkişaf baş vermiş, makroiqtisadi göstəricilər daha da yaxşılaşmışdır. Təkcə ötən il Sahibkarlığa Kömək Milli Fondunun vasitəsi ilə regionlarda fəaliyyət göstərən 5015 sahibkara 158,6 milyon manat güzəştli kredit verilmiş və bu hesaba 9800-dən çox yeni iş yeri açılmışdır. Yeri gəlmişkən onu da qeyd edək ki, həmin dövrdə verilmiş kreditlərin 63,8 faizi regionların payına düşmüşdür. Güzəştli kreditlərin isə 85,6 faizi aqrar sektorun inkişafı üçün ayrılmışdır. Bu sırada digər mühüm fakt ümumi sərmayənin 55 faizdən çoxunun qeyri-neft sektoruna yönəldilməsidir.

2015-ci ildə dövlət başçısı Sumqayıt və Mingəçevir şəhərlərində, Naxçıvan MR-də, eləcə də Qusar, Bərdə, Astara, Lənkəran, Şabran, Siyəzən, Xızı, Kürdəmir, Ucar, Göyçay, Cəlilabad, Ağsu, Zaqatala və Şəki rayonlarında bir sıra infrastruktur obyektlərinin açılış və təməlqoyma mərasimlərində iştirak etmiş, istehsal təyinatlı müəssisələrin fəaliyyəti ilə tanış olmuşdur. Söz düşmüşkən, 3-cü dövlət proqramının icrası çərçivəsində - 2014-2015-ci illərdə ölkədə 15,4 min yeni iri müəssisə yaradılmış, 189,1 mini daimi olmaqla 237,3 min iş yeri açılmışdır.

Ölkə başçısının müvafiq sərəncamları ilə qeyri-neft sənayesi sahəsində fəaliyyət göstərən kiçik və orta sahibkarlara dəstək vermək, eyni zamanda əhalinin istehsal sahəsində məşğulluğunu artırmaq üçün bu gün Neftçalada Sənaye Məhəlləsi və Mingəçevirdə Sənaye Parkı yaradılır. Bundan başqa, Prezident İlham Əliyev müasir elmi və texnoloji nailiyyətlərə əsaslanan innovasiya və yüksək texnologiya sahələrinin genişləndirilməsini, elmi tədqiqatlar aparılmasını və yeni texnologiyaların işlənilməsi üzrə müasir komplekslərin yaradılmasını təmin etmək məqsədi ilə Mingəçevir Yüksək Texnologiyalar Parkının, həmçinin əlvan metal filizi yataqlarının öyrənilməsi, işlənməsi və idarə olunması üçün «AzerGold» QSC-nin yaradılması barədə fərman və sərəncam imzalamışdır.

Sözsüz ki, bütün bu və digər tədbirlər regionlarla bərabər qeyri-neft sektorunun da inkişafını sürətləndirməyə hesablanmışdır. Bu isə indiki mürəkkəb zamanda çox vacib məsələdir. «Əgər biz vaxtilə regionların inkişafına böyük diqqət göstərməsəydik, çox güman ki, iqtisadiyyatımız bu gün birtərəfli iqtisadiyyat kimi özünü göstərə bilərdi. Bizim məqsədimiz isə ondan ibarətdir ki, iqtisadiyyatımız çoxşaxəli olsun. Xüsusilə qeyri-neft sektorunun inkişafına böyük diqqət göstərilir». Prezidentin hələ neçə il əvvəl dediyi bu sözlərin aktuallığını zaman özü təsdiqləyir. Dövlət başçısının məhz belə praqmatik fəaliyyətinin nəticəsidir ki, Azərbaycan bu gün özündən asılı olmayan səbəblər üzündən yaranan bütün çətinliklərdən ağrısız və fəsadsız çıxmağı bacarır.

**«Azərbaycan» qəzeti, 5 iyul 2016-cı il**

# Ramazan bayramı münasibətilə Azərbaycan xalqına təbrik

Hörmətli həmvətənlər!

Sizi müqəddəs Ramazan bayramı münasibətilə ürəkdən təbrik edir, ən səmimi arzu və diləklərimi yetirirəm.

Müqəddəs kitabımız Qurani-Kərimin nazil olduğu mübarək Ramazan ayı mənəviyyatı möhkəmləndirən, müsəlmanlar arasında dini-mənəvi birlik duyğusunu gücləndirən, hər bir şəxsin daxili kamilliyinin formalaşmasına xidmət edən aylardan biridir. Bu bayram insanları savab əməllərə dəvət edir, onları yer üzündə sülhün, əmin-amanlığın və qardaşlığın bərqərar olması naminə birgə səylər göstərməyə çağırır.

İslam dünyasının mədəni mərkəzlərindən biri kimi tanınmış Azərbaycanda dini və milli-mənəvi dəyərlərə hörmət həmişə xüsusi həssaslıqla qorunub saxlanılmışdır. Bu gün əsl tolerantlıq örnəyinə çevrilən ölkəmizdə ayrı-ayrı dinlər və təriqətlər arasında qarşılıqlı hörmətin inkişaf etdirilməsi dövlət siyasətinin əsas istiqamətlərindəndir.

Azərbaycanda müxtəlif milli və dini mərasimlər, o cümlədən, Ramazan bayramı hər il dövlət səviyyəsində təntənəli şəkildə qeyd olunur. Eyni zamanda məmnunluqla deyə bilərik ki, ölkəmizdə yaşayan bütün dinlərin nümayəndələri bəşəri hadisə olan Ramazan bayramına böyük sevgi ilə yanaşır, ölkəmizin multikultural ənənələrini ehtiramla qoruyurlar.

Əziz bacı və qardaşlarım!

İnsanlarda vəhdət və humanizm duyğularını, Allah və vətən sevgisini daha da gücləndirən Ramazan bayramı hər il olduğu kimi, bu il də bütün xalqımız tərəfindən böyük ruh yüksəkliyi və könül xoşluğu ilə qeyd edilir. Bu əziz bayram günlərində sizi və ölkəmizdən kənarda yaşayan soydaşlarımızı bir daha təbrik edir, hər birinizə firavanlıq, ailələrinizə xoşbəxtlik, süfrələrinizə bərəkət arzulayıram.

Ramazan bayramınız mübarək olsun!

# Prezidentin mətbuat xidmətinin məlumatı

Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan iyulun 4-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng edərək müqəddəs Ramazan bayramı münasibətilə dövlətimizin başçısını təbrik edib, Azərbaycan xalqına firavanlıq arzularını çatdırıb.

Dövlətimizin başçısı göstərilən diqqətə və təbrikə görə Türkiyə Prezidentinə minnətdarlıq edib, bayram münasibətilə Rəcəb Tayyib Ərdoğana təbriklərini çatdırıb, Türkiyə xalqına əmin-amanlıq və tərəqqi arzulayıb. Dövlət başçıları dostluq və qardaşlıq münasibətlərimizin bütün sahələrdə bundan sonra da uğurla inkişaf edəcəyinə əminlik ifadə ediblər.

İyulun 5-də İran İslam Respublikasının Prezidenti Həsən Ruhani Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng edərək müqəddəs Ramazan bayramı münasibətilə dövlətimizin başçısını təbrik edib, Azərbaycan xalqına rifah və əmin-amanlıq arzularını çatdırıb.

Prezident İlham Əliyev göstərilən diqqətə və təbrikə görə minnətdarlıq edərək, öz növbəsində Ramazan bayramı ilə əlaqədar İran İslam Respublikasının Prezidentini təbrik edib, İran xalqına tərəqqi və firavanlıq arzulayıb.

Dövlətimizin başçısı İran İslam Respublikası Prezidentinin gələn ay Azərbaycana gözlənilən səfərinin ölkələrimiz arasında ikitərəfli münasibətlərin daha da inkişaf etməsi işinə təkan verəcəyinə ümidvar olduğunu bildirib.

Telefon söhbəti zamanı iki ölkə arasında siyasi, iqtisadi, nəqliyyat, energetika, Xəzər dənizində birgə əməkdaşlığın gələcəyi ilə bağlı fikir mübadiləsi aparılıb.

# Amerika Birləşmiş Ştatlarının Prezidenti zati-aliləri cənab Barak Obamaya

Hörmətli cənab Prezident,

Amerika Birləşmiş Ştatlarının milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasındakı münasibətlər bu gün hərtərəfli inkişaf yolundadır. Bir sıra sahələrdə ölkələrimizin sıx və qarşılıqlı faydalı əməkdaşlığı ikitərəfli münasibətlərimizi strateji tərəfdaşlıq səviyyəsinə yüksəltmişdir.

Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində, terrorizmə qarşı mübarizədə, NATO-nun Əfqanıstanda sülhyaratma missiyasında ölkələrimizin sıx əməkdaşlığı və qarşılıqlı dəstəyi tərəfdaşlığımızın



səciyyəvi cəhətlərindəndir.

Biz, həmçinin Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları nəticəsində yaranmış Dağlıq Qarabağ münaqişəsinə son qoyulması, işğal olunmuş torpaqlarımızın azad edilməsi, qaçqın və məcburi köçkün vəziyyətinə düşmüş bir milyondan çox soydaşımızın öz doğma yurd-yuvasına qayıtması üçün ATƏT-in Minsk qrupunun həmsədri kimi ABŞ-ın və şəxsən Sizin, cənab Prezident, səylərinizin tezliklə nəticə verəcəyinə böyük ümidlər bəsləyirik.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Amerika xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*
***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı, 1 iyul 2016-cı il.*

## BU NÖMRƏMİZDƏ

AMERİKA TİCARƏT PALATASININ NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ KEÇİRİLİB 2

VERGİ SİSTEMİNDƏ HƏYATA KEÇİRİLƏN İSLAHATLAR BİZNES DAİRƏLƏRİ TƏRƏFİNDƏN TƏQDİR OLUNUR 3

BƏLƏDİYYƏLƏRİN VERGİ SAHƏSİNDƏ SƏRİŞTƏLƏRİNİN ARTIRILMASINA XÜSUSİ ÖNƏM VERİLİR 4

AVTONƏQLİYYAT XİDMƏTİ GÖSTƏRƏN ŞƏXSLƏRİN VERGİ ÖHDƏLİKLƏRİ 5

# Amerika Ticarət Palatasının nümayəndələri ilə görüş keçirilib

Vergilər Nazirliyində keçirilən görüşdə vergilər nazirinin birinci müavini, 3-cü dərəcəli dövlət vergi xidməti müşaviri Sahir Məmmədxanov Azərbaycanda Amerika Ticarət Palatasının («AmCham») nümayəndələrini salamlayaraq, son dövrlərdə Azərbaycanın vergi sistemində aparılan islahatlar və bu sahədə əldə olunan uğurlar haqqında qonaqlara məlumat verib, ölkəmizdə fəaliyyət göstərən bir çox aparıcı xarici və yerli şirkətləri təmsil edən bu qurum ilə mütəmadi olaraq işgüzar görüşlərin keçirilməsinin əhəmiyyətini vurğulayıb.





Bildirilib ki, Azərbaycanda həyata keçirilən vergi siyasəti ölkədə biznes mühitinin təkmilləşdirilməsinə xidmət edir. Vergilər Nazirliyi bu mühitin daha da yaxşılaşdırılması istiqamətində ictimai təşkilatlarla müxtəlif müzakirələrin keçirilməsinə böyük önəm verir, vergi mühitinin liberallaşdırılması, vergi inzibatçılığının təkmilləşdirilməsi, vergi dərəcələrinin optimallaşdırılması məqsədilə qanunvericiliyə hər hansı dəyişikliklər edilərkən ölkədə fəaliyyət göstərən yerli və xarici biznes strukturlarının, onların ictimai təşkilatlarının rəyini nəzərə almağa, hər bir təklifə diqqətlə yanaşmağa çalışır.

Vergilər nazirinin birinci müavini diqqətə çatdırıb ki, sahibkarlıq subyektlərinin biznes fəaliyyətinin daha səmərəli və çevik təşkili üçün son illər ərzində vergi qanunvericiliyi və inzibatçılığında bir sıra dəyişikliklər edilib. Vergi hesabatlarının elektron qaydada təqdim olunması, e-VHF sisteminin, vahid ƏDV depozit hesabının, vergi orqanı ilə banklar arasında onlayn inteqrasiyanın tətbiqi, yerli investisiyalı məhdud məsuliyyətli cəmiyyətlərin elektron qeydiyyatı, «ASAN imza»nın tətbiqi ilə vergi ödəyicilərinin öz bəyannamələrini elektron qaydada göndərməsi, nağdsız hesablaşmaların genişləndirilməsi, mobil hökumətə keçid üçün əlverişli şəraitin yaradılması, elektron auditin tətbiqi ilə vergi ödəyicisinə sərf olunan vaxt və insan resurslarının həcminin əsaslı şəkildə azalması kimi inzibatçılıqda edilmiş dəyişikliklər vergi orqanı ilə vergi ödəyicilərinin fəaliyyətlərinin səmərəliliyini əhəmiyyətli şəkildə artırıb. Eyni zamanda, sahibkarlığa lüzumsuz müdaxilələrin qarşısının alınması, onun inkişafının stimullaşdırılması və vergi risklərinin minimallaşdırılması məqsədilə vergi partnyorluğu qaydasında əməkdaşlığa başlanılıb. Qeyd edilib ki, vergi orqanları tərəfindən göstərilən xidmətlərin təkmilləşdirilməsi məqsədilə 56 xidmət mərkəzi yaradılıb və 60 adda elektron xidmət istifadəyə verilib.

Nazirin birinci müavini bildirib ki, qanunvericiliyə edilmiş ən son dəyişikliklərə əsasən, ticarət və ictimai iaşə fəaliyyəti ilə məşğul olan şəxslərə satış dövriyyəsi 200.000 manatdan artıq olduğu halda ticarət fəaliyyəti üzrə 6 faiz, ictimai iaşə fəaliyyəti üzrə 8 faiz dərəcə ilə sadələşdirilmiş verginin ödəyicisi olmaq hüququ verilib, ƏDV məqsədləri üçün vergi tutulan əməliyyatların həcmi 120.000 manatdan 200.000 manatadək, ƏDV qeydiyyatının ləğvi üçün vergi tutulan əməliyyatların həcmi isə 60.000 manatdan 100.000 manatadək artırılıb, sahibkarların investisiya təşviqi sənədini almış investisiya fəaliyyətini həyata keçirən hüquqi şəxslər və fərdi sahibkarlar əlavə dəyər vergisindən, əmlak və torpaq vergilərindən, o cümlədən həmin sənədi aldığı tarixdən əldə etdiyi gəlirin (mənfəətin) 50 faizi məbləğində gəlir və mənfəət vergilərindən 7 il müddətinə azad edilib, buğdanın idxalı və satışı, buğda ununun və çörəyin istehsalı və satışı 2016-cı il yanvarın 1-dən 1 il müddətinə ƏDV-dən azad olunub, yerli və xarici bankların Azərbaycan Respublikasında fəaliyyət göstərən filialları tərəfindən fiziki şəxslərin əmanəti üzrə ödənilən illik faiz gəlirləri, habelə emitent tərəfindən investisiya qiymətli kağızları üzrə ödənilən dividend, diskont (istiqrazların nominalından aşağı yerləşdirilməsi nəticəsində yaranmış fərq) və faiz gəlirləri gəlir vergisindən azad edilib, Qaradağ sənaye parkında gəmiqayırma fəaliyyəti ilə məşğul olan rezidentə podratçı tərəfindən, podratçıya isə onunla birbaşa müqavilə bağlamış subpodratçı tərəfindən həmin fəaliyyətin məqsədləri üçün malların təqdim edilməsi, işlərin görülməsi və xidmətlərin göstərilməsinə görə ƏDV-nin 2016-cı il mayın 1-dən 5 il müddətinə sıfır (0) faiz dərəcəsi ilə tutulması müəyyən edilib, damazlıq heyvanların, toxum və tinglərin, mineral gübrələrin, pestisidlərin, toxumların yetişdirilməsi, quşçuluq və arıçılıq üçün avadanlıqların, o cümlədən laboratoriya avadanlıqlarının, toxum, taxıl və quru paxlalı bitkilərin təmizlənməsi, çeşidlənməsi və ya kalibrlənməsi üçün maşınların idxalı və satışı, kənd təsərrüfatı heyvanlarının və quşların profilaktikası, diaqnostikası və müalicəsi üçün istifadə olunan baytarlıq preparatlarının idxalı, bilavasitə kənd təsərrüfatı təyinatlı suvarma və digər qurğuların, maşınların, avadanlıqların və texnikaların idxalı və satışı ƏDV-dən azad edilib, xarici dövlətlərin yük avtomobillərinin, qoşqulu və yarımqoşqulu avtonəqliyyat vasitələri 2016-cı ilin iyun ayının 1-dən 3 il müddətinə yol vergisindən azad edilib.

«AmCham»ın prezidenti İlqar Vəliyev səmimi qəbula görə öz minnətdarlığını bildirərək, təmsil etdiyi təşkilat ilə Vergilər Nazirliyi arasındakı əməkdaşlığın səviyyəsindən məmnunluğunu ifadə edib. Qeyd olunub ki, Azərbaycan iqtisadiyyatının hər bir sahəsində fəal olan yüzlərlə xarici və yerli şirkəti özündə birləşdirən «AmCham» ölkədə biznes mühitini yaxşılaşdıran mükəmməl vergi qanunvericiliyinin olmasında maraqlıdır. Qurum tərəfindən artıq 5-ci ildir ki, vergi partnyorluğu mövzusunda müxtəlif tədbirlər keçirilir, vergitutma sahəsində aktual olan mövzular üzrə müzakirələr aparılır, konkret təkliflər irəli sürülür.

Görüşdə Azərbaycan hökumətinin iqtisadiyyatın müxtəlif sahələrini inkişaf etdirmək üçün atdığı müsbət addımlar, o cümlədən biznes mühitinin təkmilləşdirilməsi və ölkədə aparılan vergi siyasəti ilə bağlı müzakirələr aparılıb.

Sonda qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Vergilər Nazirliyi vergi ödəyiciləri ilə münasibətləri partnyorluq əsasında qurmağa çalışır

**Ötən həftə «Avropa» otelində «Caspian European Club»un təşkilatçılığı ilə biznes forumu keçirilmişdir. Tədbirdə vergilər nazirinin müavini İlkin Vəliyev, Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsinin rəisi Samirə Musayeva, «Caspian European Club»un üzvü olan şirkət rəhbərləri, eləcə də ölkəmizdə fəaliyyət göstərən xarici ölkələrin səfirləri, diplomatik qurumların nümayəndələri iştirak etmişlər.**




***«Caspian European Club»un sədrinin 1-ci müavini və baş icraçı direktoru Telman Əliyev*** forumda çıxış edərək bildirmişdir ki, 2002-ci ilin iyun ayında regionda fəaliyyət göstərən iri neft-qaz şirkətləri və «Caspian Energy International Media Group» tərəfindən yaradılmış «Caspian European Club»u neft klubu kimi yaransa da, 2003-cü ildən istiqamətini dəyişərək biznes klub kimi fəaliyyətə başlayıb, hazırda bir sıra sahə klublarını özündə birləşdirir. Bunların sırasında maliyyə, tikinti, nəqliyyat, sığorta, bank, turizm və başqa sahələri təmsil edən klublar var. Sıralarında 5 mindən artıq şirkət və təşkilatı birləşdirən «Caspian European Club» dünyanın 50 ölkəsində fəaliyyət göstərir və dövlət qurumları ilə özəl sektor arasında dialoqa dəstək istiqamətində fəal iş aparır. Sahə klubları çərçivəsində təkliflər toplanılır, problemlər müzakirə olunur və yazılı formada aidiyyəti qurumlara çatdırılır.

Qeyd edilmişdir ki, Vergilər Nazirliyi ilə birgə biznes forumunun keçirilməsində məqsəd biznes qurumlarını maraqlandıran sualları cavablandırmaq, problemləri müzakirə etmək və təklifləri dinləməkdir. İştirakçıların nəzərinə çatdırılmışdır ki, tədbirin sonunda «Caspian European Club»un Ekspert Şurası Vergilər Nazirliyi ilə birgə vergi qanunvericiliyində dəyişikliklərin edilməsi ilə bağlı təkliflər hazırlayacaq və həmin təkliflər Prezident Administrasiyasına, Nazirlər Kabinetinə və Milli Məclisə təqdim ediləcək.

***Vergilər nazirinin müavini İlkin Vəliyev*** çıxışında vergi sistemində aparılan islahatlar, vergi qanunvericiliyinə edilmiş dəyişikliklər barədə məlumat verərək bildirmişdir ki, son dövrlər ölkə başçısı tərəfindən sahibkarlara dəstək sahəsində imzalanan sərəncam və fərmanlar, əsasən, dövlət qurumları və sahibkarlar arasında partnyorluq münasibətlərinin qurulması, sahibkarlara dövlət dəstəyinin göstərilməsinə yönəldilmişdir və Vergilər Nazirliyi öz səlahiyyətləri çərçivəsində bu iqtisadi siyasətə uyğunlaşır: «Vergilər Nazirliyi tərəfindən xüsusilə informasiya və kommunikasiya texnologiyalarının tətbiqi sahəsində aparılan islahatlar sırf sahibkarlığın dəstəklənməsini, vergi sahəsində iş prosesinin sadələşdirilməsini əhatə edir. Ölkə başçısının 2005-ci ildə imzaladığı «Azərbaycan Respublikasında vergi inzibatçılığının təkmilləşdirilməsi» Dövlət Proqramına uyğun olaraq, bütün vergi proseslərini avtomatlaşdırmaqla, vergi ödəyicilərinə göstərilən xidmətlərin tam elektronlaşmasına nail olmuşuq. Hazırda nazirlik tərəfindən 60-dan çox xidmət elektron qaydada göstərilir ki, bu da şəffaflığın təmin edilməsinə, vergi orqanları ilə sahibkarların birbaşa təmasının minimuma endirilməsinə istiqamətlənmişdir».

Bəyannamələrin elektron qaydada təqdim olunmasına diqqəti yönəldən nazir müavini əlavə etmişdir ki, bütün arayışlar, vergi ödəyiciləri ilə yazışmalar da elektron qaydada həyata keçirilir: «Vergi orqanlarında şəffaflığın təmin edilməsi, sahibkarların işlərinin sadələşdirilməsi ilə yanaşı, onların hüquq və mənafelərinin qorunması da prioritet hədəflərimizdəndir. Vergilər Nazirliyində fəaliyyət göstərən Apelyasiya Şurasının məqsədi isə sahibkarların ərizə və şikayətlərinə operativ qaydada baxılmasına, daha tez və qanunauyğun qaydada həll edilməsinə nail olmaqdır».

Sahibkarlıq subyektlərində keçirilən yoxlamalar barədə danışan İ.Vəliyev bildirmişdir ki, ötən ildən kiçik və orta sahibkarlıq subyektlərinin əksəriyyətində yoxlamaların keçirilməsi dayandırılmışdır: «Son 5 ayda keçirilən yoxlamalar ötən ilin müvafiq dövrü ilə müqayisədə iki dəfədən çox azaldılmışdır. Amma bu o demək deyil ki, Vergilər Nazirliyi tərəfindən bir daha yoxlamalar keçirilməyəcək. Sadəcə olaraq, yoxlamalar bütün ödəyicilərdə deyil, vergidən yayınma riski olan vergi ödəyicilərində keçiriləcək».

Qeyd edilmişdir ki, Vergilər Nazirliyi vergi ödəyiciləri ilə münasibətlərini partnyorluq əsasında qurmağa çalışır və bunun üçün də belə dialoqların mütəmadi keçirilməsi çox vacibdir. Nazir müavininin sözlərinə görə, Vergilər Nazirliyi biznes mühitinin daha da yaxşılaşdırılması istiqamətində ictimai təşkilatlarla müzakirələrin keçirilməsinə böyük önəm verir, vergi inzibatçılığının təkmilləşdirilməsi məqsədilə qanunvericiliyə təklif olunan dəyişiklik layihələrində yerli və xarici biznes strukturlarının, ictimai təşkilatların rəyini nəzərə almağa çalışır: «Belə tədbirlərdə biznes qurumlarının təkliflərini dinləyirik, problemlər olduğu halda, onların həlli istiqamətində qərarlar veririk. Bu görüşlərin tez-tez keçirilməsi ona görə zəruridir ki, hər kəs öz sahəsində olan boşluqları görüb, onları obyektiv qiymətləndirə bilsin».

Sonra biznes strukturlarının nümayəndələri Vergilər Nazirliyinin rəhbər vəzifəli şəxslərinə suallarını ünvanlayıblar.

Forum çərçivəsində İlkin Vəliyevə «Caspian European Club»un fəxri üzvlük sertifikatı təqdim olunub və klubun yeni üzvlərinə - «A-Group Insurance Company» və «Paşa Life» sığorta şirkətinə, «Veysəloğlu» şirkətlər qrupuna, «Trast» şirkətinə, «Azertelecom», «Debet Uniform» və «Mont» MMC-yə də sertifikatlar verilib.

## Forumla bağlı tədbir iştirakçılarının rəyləri

- ***«Standard Insurance» sığorta şirkətinin nümayəndəsi Faiq Quliyev:*** «Bu tədbir iş adamları və dövlət qurumları arasında informasiya mübadiləsi baxımından son dərəcə zəngin oldu. Belə tədbirlərdə sahibkarlar onları narahat edən məsələlərin müzakirəsində, problemlərin həllində iştirak imkanı qazanırlar. Hesab edirəm ki, bu cür forumlar davamlı xarakter daşımalıdır. Çünki qarşılıqlı dialoq inkişafa təkan verir, sahibkarların maariflənməsində, onların öz işlərini daha mükəmməl qurmasında əvəzedilməz rol oynayır. Ümumiyyətlə, Vergilər Nazirliyi dövlət orqanları arasında informasiya açıqlığına görə daim öndə gedən qurumdur».
- ***«Caspian Event Organisers» şirkətinin nümayəndəsi Ülkər Cəlilova:*** «Vergilər Nazirliyinin təşkil etdiyi vergi forumları və vergi konfransları konkret nəticələr əldə etmək baxımından təqdirəlayiqdir. Bundan sonra «Caspian European Club» ilə Vergilər Nazirliyi davamlı şəkildə birgə forumlar keçirmək barədə razılığa gəliblər. Bu cür tədbirlərin keçirilməsi istər sahibkarların problemlərinin, istərsə də yeni qanun layihələrinin müzakirəsində mühüm rol oynayır».
- ***«Pricewaterhouse Coopers» şirkətinin vergi məsləhətləri üzrə direktoru Arif Quliyev:*** «Vergilər Nazirliyinin əməkdaşları sahibkarlarla nə qədər çox görüşsə, onların problemlərini dinləyərək nəticə çıxarsa, biznes sahəsində də o qədər böyük inkişaf ola bilər. Vergi qanunvericiliyində mövcud olan müəyyən boşluqların aradan qaldırılması üçün biznes strukturları ilə mütəmadi təmasda olmaq vacibdir. Vergilər Nazirliyinin tədbirlərində tez-tez iştirak edirik və bu görüşlərin müsbət nəticələrini hiss edirik».
- ***«Delta Telekom» şirkətinin nümayəndəsi Anar Gülməmmədov:*** «İlk dəfədir belə bir forumda iştirak edirəm. Fikrimcə, bu, bütün iş adamları üçün çox əhəmiyyətli oldu. Tədbirdə sahibkarlara öz problemlərinə aydınlıq gətirmək imkanı yaradıldı. Bu cür görüşlər davamlı olarsa, iş adamları ilə dövlət qurumları mövcud çətinliklərin aradan qaldırılması üçün birgə səylər göstərə bilərlər. Sıx münasibətlər əsasında problemlər həllini daha tez tapa bilər».
- ***«Grata Azerbaijan» MMC-nin icraçı direktoru Ummi Cəlilova:*** «Bu gün Vergilər Nazirliyi «qaynar xətt» baxımından da, informasiya açıqlığı baxımında da digər dövlət orqanları ilə müqayisədə daha operativ, daha effektiv işləyir. Vergi və biznes forumlarının keçirilməsi, vergi ödəyiciləri ilə görüşlər buna bariz nümunədir. Nazirliyin rəhbər vəzifəli şəxslərinin tədbirdə iştirak etməsi çox müsbət haldır, amma konkret sualların daha müfəssəl cavablandırılması üçün ayrı-ayrı sahələr üzrə ixtisaslaşmış kadrlar da olsa, daha effektiv nəticə verə bilər».
- ***«MONT» şirkətinin direktoru Günel Səfərəliyeva:*** «Şirkətimiz proqram təminatının satışını həyata keçirir. Partnyorlarımıza konsultasiya xidməti göstərir, texniki dəstək veririk. Fəaliyyətimiz zamanı bəzi çətinliklərlə üzləşirik ki, belə tədbirlər vasitəsilə həmin problemlərin aydınlaşdırılması üçün nazirliyin əməkdaşlarının köməyindən istifadə etmək imkanımız yaranır. Bundan əlavə, bildiyimiz kimi, yeni inkişaf strategiyasına uyğun olaraq, Vergi Məcəlləsinə tez-tez dəyişikliklər edilir, təkmilləşdirmələr aparılır. Bütün bunların vaxtlı-vaxtında iş adamlarına çatdırılması üçün belə tədbirlər böyük əhəmiyyət kəsb edir».
- ***«VEYSELOGLU» şirkətlər qrupunun maliyyə departamentinin direktoru Natəvan İbrahimova:*** «Çox ehtiyac duyulan forum idi. Belə tədbirlər zamanı biznesimizlə bağlı yaranan suallara daha qənaətbəxş cavablar əldə edə bilirik. Son dövrlər dünyada baş verən proseslər onu göstərdi ki, sahibkarlıq fəaliyyətinin ciddi dəstəyə ehtiyacı var. Biznes qurumları nümayəndələrinə bir yerə yığışaraq aktuallıq kəsb edən sualları Vergilər Nazirliyinin əməkdaşlarına ünvanlamaq imkanının yaradılması ölkəmizdə iş adamlarına göstərilən dəstəkdən xəbər verir».

**Aytən NƏBİYEVA**

# İcra məmurlarına təlim keçilib

Azərbaycan Respublikası Prezidentinin «Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında» 23 may 2011-ci il tarixli fərmanından irəli gələn vəzifələrin yerinə yetirilməsi məqsədilə Vergilər və Ədliyyə nazirlikləri arasında «Ədliyyə Nazirliyinin icra məmurlarının Vergilər Nazirliyinin Avtomatlaşdırılmış Vergi İnformasiya Sisteminin (AVİS) məlumatlarından istifadə reqlamenti haqqında» razılaşma imzalanmışdır. Bu sistemdən qüsursuz istifadə olunmasını təmin etmək üçün Ədliyyə Nazirliyinin müraciətinə əsasən, iyulun 2-də Vergilər Nazirliyinin əməkdaşları tərəfindən AVİS-in müvafiq bölməsindən istifadə qaydaları mövzusunda icra məmurlarına təlim keçilmişdir.

Ədliyyə Nazirliyinin İcra Baş İdarəsinin rəisi Nurəddin Mustafayev müasir informasiya texnologiyalarından istifadə etməklə məlumatların ötürülməsinin nazirliklər arasında ikitərəfli əməkdaşlığın daha da möhkəmləndirilməsinə, iş prosesində keyfiyyətə nail olunmasına, qərarların daha operativ icrasına və son nəticədə dövlət büdcəsinə borc məbləğlərinin yığılmasına xidmət edəcəyini vurğulamışdır.

Vergilər Nazirliyinin Tədris Mərkəzinin rəis müavini Mirəli Kazımov qeyd etmişdir ki, nazirliklər arasında qarşılıqlı əməkdaşlığa əsaslanan bu təlim icra məmurlarının AVİS-dən istifadəsinin asanlaşmasına, verilmiş sorğular əsasında məlumatların effektiv şəkildə ötürülərək səmərəli iş mühitinin yaranmasına öz töhfəsini verəcəkdir.

# Antidempinq haqqında normativ baza hazırlanır

**Son dövrlər azərbaycanlı fermerlər tərəfindən istehsal edilən və Rusiya Federasiyasına ixrac olunan kənd təsərrüfatı məhsulları bu ölkənin aidiyyəti qurumları tərəfindən müxtəlif arqumentlər irəli sürülərək geri qaytarılır və ya müvafiq laborator yoxlamalar adı altında uzun müddət sərhəddə yubadılırdı. Problemin bir daha yaşanmaması üçün artıq hər iki ölkə arasında müvafiq razılıq əldə olunub.**

Dövlət Gömrük Komitəsinin sədri Aydın Əliyev mətbuata açıqlamasında bildirib ki, hər bir inkişaf edən ölkə daxili istehsal və daxili bazarı qorumaq istəyirsə, orada mütləq antidempinq haqqında normativ baza olmalıdır: «Artıq bu, Azərbaycanda da yaradılır. Gömrük Komitəsi də bu istiqamətdə müvafiq qurumlara öz təkliflərini göndərib. Ölkə iqtisadiyyatının təhlükəsizliyini qoruyan dövlət təşkilatı olaraq, biz Azərbaycan istehsalı olan məhsullara daha artıq rüsumun tətbiqi, eyni zamanda istehsalla bağlı gətirilən xammalın komponentlərinə gömrük rüsumlarının aşağı salınması ilə bağlı hökumətə təkliflərimizi bildirmişik».

İqtisadçı ekspert Pərviz Heydərov bizimlə söhbətdə bildirdi ki, dünya iqtisadiyyatında baş verən və sürətlə cərəyan etməkdə olan proseslərlə əlaqədar istehsalda, o cümlədən bazarlarda rəqabət gündən-günə kəskinləşir: «Hər kəsə məlumdur ki, iqtisadi inkişafın əldə olunması üçün rəqabət əsas şərtlərdən biridir. Lakin haqsız rəqabət deyilən bir anlayış da vardır ki, bu, inkişafı ciddi zərbə altında qoyur. Odur ki, belə şəraitdə dövlət öz tənzimləyici alətlərindən istifadə etməklə bunun qarşısını almalıdır. Bu baxımdan, müvafiq qanunvericilik bazasının mövcud olması vacibdir. Başqa sözlə desək, antidempinq siyasəti həyata keçirmək üçün hüquqi baza olmalıdır. Dempinq - bir ölkənin istehsal etdiyi əmtəəsini digər ölkənin ərazisində öz ölkəsindəkinə nisbətən ucuz qiymətə satmasıdır. Bu, bazarda potensial rəqibi sıxışdırıb çıxarmaq və satışın həcmini artırmaq məqsədilə edilir. Məlum olduğu kimi, bizim bazar kiçik bazar olduğundan, Azərbaycana qarşı dempinq siyasəti həyata keçirən potensial ölkələrin sayı çoxdur. Bu zaman keyfiyyət amili də nəzərə alınmalıdır. Bütün bunların fonunda isə bazarı qorumaq sahəsində hökumətin üzərinə böyük yük düşür. Sirr deyil ki, daxili bazarımız bir sıra zəruri idxal məhsullarından asılı vəziyyətdədir. Odur ki, antidempinq siyasəti elə həyata keçirilməli və bu sahədə elə mexanizm qurulmalıdır ki, bu, inhisarçılığın daha da güclənməsinə və yerli istehsalın rəqabətqabiliyyətli inkişaf tempindən kənarda qalmasına şərait yaratmasın».

**FƏXRİYYƏ**

## Azərbaycan Mətbuat Şurasının və Vergilər Nazirliyinin «Azərbaycanın vergi sistemi yeni iqtisadi inkişaf mərhələsində» mövzusunda fərdi yazı müsabiqəsinin ELANI

Müsabiqənin məqsədi Azərbaycanın müasir vergi sistemi ilə bağlı məlumatların cəmiyyətə çatdırılmasında vətəndaş və jurnalist yaradıcılığını stimullaşdırmaqdır.

**Müsabiqəyə təqdim olunacaq yazıların mövzu istiqamətləri**

1. Yeni iqtisadi inkişaf modelinin formalaşmasında vergi siyasətinin rolu;
2. Vergi təbliğatı: dövlət tərəfindən müəyyən edilmiş vergiləri ödəmək hər kəsin Konstitusiya borcudur;
3. Dövlət və vergilər: dövlət büdcəsinə ödənilən vergilər nəyə xərclənir?;
4. Vergidən yayınma nə ilə nəticələnə bilər və bu, hansı məsuliyyət yaradır?;
5. Vergi sisteminin və sahibkarlıq subyektlərinin fəaliyyətinin şəffaflaşdırılması;
6. Vergi ödəyicilərinə xidmətlər biznesin idarə edilməsinin asanlaşdırılması vasitəsi kimi;
7. Elektron vergi xidmətlərinin tətbiqi innovativ islahatların «açarı» kimi;
8. Nağdsız ödənişlərin stimullaşdırılmasının vergi daxilolmalarının artmasına təsiri.

**II. Müsabiqəyə təqdim olunmuş yazıların mükafatlandırılması**

I yer - 1000 manat (1 mükafat)
II yer - 800 manat (2 mükafat)
III yer - 500 manat (2 mükafat)
Həvəsləndirici mükafat - 200 manat (5 mükafat)

**III. Müsabiqənin şərtləri**

Müsabiqəyə təqdim olunmuş yazılarda aşağıdakılara üstünlük veriləcək:

1. Materialların mövzunu, konkret olaraq nəzərdə tutulan istiqaməti dolğun əhatəetmə səviyyəsi;
2. Faktlardan istifadə xüsusiyyətləri və araşdırmanın keyfiyyəti;
3. İfadə vasitələrinin zənginliyi;
4. Oxucu üçün informasiyalılıq dərəcəsi;
5. Qabaqcıl dünya təcrübəsi ilə məzmunlu müqayisə.

Müsabiqəyə 2016-cı ilin may ayının 25-dən iyul ayının 15-dək müddətdə qəzet, jurnal və informasiya agentliklərində, həmçinin xəbər saytlarında gedən yazılar buraxılacaq.

Qaliblərin adları 2016-cı ilin iyul ayında - Milli Mətbuat Günü ərəfəsində açıqlanacaq.

Müsabiqə üçün dil və janr məhdudiyyəti nəzərdə tutulmur.

Yazılar 9-11 min işarədən (1 A3 formatlı qəzet vərəqindən) çox olmamalıdır.

Yazıda «Yazı Mətbuat Şurasının və Vergilər Nazirliyinin «Azərbaycanın vergi sistemi yeni iqtisadi inkişaf mərhələsində» mövzusunda fərdi yazı müsabiqəsinə təqdim olunmaq üçün verilir» qeydi olmalıdır.

Qeyd: Azərbaycan Mətbuat Şurasının «qara siyahı»sında yer alan kütləvi informasiya vasitələrində dərc olunan yazılar müsabiqəyə qəbul edilmir.

**IV. Yazıların qiymətləndirilməsi**

Müsabiqəyə qəbul olunmuş materiallar Vergilər Nazirliyi və Mətbuat Şurasının müəyyən etdiyi xüsusi komissiya tərəfindən qiymətləndiriləcək.

**V. Yazıların təqdim edilməsi**

Müsabiqə üçün yazılar ayrıca zərfdə təqdim olunmalıdır.

Yazıya aşağıdakı materiallar da əlavə edilməlidir:

- yazı təqdim edən şəxsin harada işlədiyini təsdiqləyən sənədin surəti;
- yazı təqdim edən şəxsin şəxsiyyət vəsiqəsinin surəti;
- yazı təqdim edən şəxsin əlaqə vasitələri - ev, iş və mobil telefonunun nömrəsi;
- müsabiqə üçün verilmiş yazının getdiyi qəzet və jurnalın 1 nüsxəsi (ayrıca vərəqədə);
- yazı elektron media resursunda verilibsə, bunu təsdiqləyən link (ayrıca vərəqədə);
- materialın yazılı formada A4 formatlı kağız vərəqində 3 nüsxəsi;
- diskdə materialın elektron forması (Times New Roman şriftində, müəllifin adı qeyd olunmamaqla);
- yazı elektron media resursunda verilibsə, diskdə yazının linki göstərilməlidir.

Müsabiqə üçün yazılar may ayının 25-dən iyul ayının 15-dək həftənin iş günləri saat 11.00-dan 17.00-dək Bakı şəhəri, Məmməd Araz küç., 4 ünvanında (əvvəlki Teymur Əliyev küç., 38 - Azərbaycan Mətbuat Şurasının ofisi) və Bakı şəhəri, Ə.Haqverdiyev küç., 60 ünvanında qəbul ediləcək.

Təqdimat prosesində müsabiqə qaydalarının hər hansı birinin yerinə yetirilməməsi qaydaların pozulması kimi qiymətləndiriləcək və yazı qəbul edilməyəcək.

**Əlaqə telefonları:**
(+99412) 441 35 30, (050) 534 93 26, (055) 201 99 26,
(+99412) 403 87 90, (050) 254 25 52,
(+99412) 403 87 88, (050) 254 02 62

**Məsul əlaqələndiricilər:**
Əvəz Rüstəmov (Mətbuat Şurası),
Rövşən Məmmədov (Vergilər Nazirliyi)
Şahin Məmmədov (Vergilər Nazirliyi)

# Vergi sistemində həyata keçirilən islahatlar biznes dairələri tərəfindən təqdir olunur

**Bakıda Vergilər Nazirliyi və «Caspian European Club»un (Caspian Business Club) təşkilatçılığı ilə keçirilmiş biznes forumunda ölkənin iri müəssisə və şirkətlərinin nümayəndələri, iş adamları və sahibkarlar iştirak etmişlər. Tədbir iştirakçıları arasında ölkədə biznes mühitinin daha da yaxşılaşdırılması, sahibkarlığın inkişafı, bu sahədəki mövcud problemlər və onların həlli yolları ilə bağlı sorğu keçirdik...**

***«Akkord» STİK ASC-nin baş direktoru Göksel Aybek:*** Türkiyə ilə Azərbaycan arasında hər sahədə möhkəm dostluq, əməkdaşlıq münasibətləri var. Davamlı əlaqələr yüksələn xətt üzrə inkişaf edir və bu bizi çox sevindirir. Biz, türk iş adamları Azərbaycan və Türkiyə arasında iqtisadi, sosial və mədəni əlaqələrin inkişaf etdirilməsinə öz töhfəmizi verməkdə, Azərbaycanın sahib olduğu iqtisadi potensialdan birlikdə istifadə etmək və bir sinerji yaratmaqda maraqlıyıq.



«Akkord» Sənaye, Tikinti, İnvestisiya Korporasiyası Açıq Səhmdar Cəmiyyəti 2005-ci ildə təsis edilib. Fəxrlə deyə bilərik ki, Cənubi Qafqazda tikinti sektorunun lider şirkətlərindən olan bu korporasiya qısa müddət ərzində yaşayış binalarının tikintisi və satışı, həmçinin digər ictimai obyektlərin və infrastruktur layihələrinin tikintisi, inşaat materiallarının istehsalı və emalı sahəsində yüksək nailiyyətlər əldə edib. Bizim uğur prinsiplərimiz təhlükəsizlik, sağlamlıq və ətraf mühit məsələləri kimi həssas mövzulara yanaşmamızı tənzimləyir. Bu prinsiplər bizə etimad göstərən insanlara münasibətimizi müəyyən edir.

Azərbaycanda sahibkarlığın inkişafı və genişləndirilməsi istiqamətində keçən ildən başlanılan tədbirlər planı davam etdirilir. Buraya yoxlamaların dayandırılması, bir sıra vergi və rüsumların ödənilməsi prosedurları, habelə icazə xarakterli müxtəlif sistemlərin sadələşdirilməsi, stimullaşdırıcı tədbirlərin həyata keçirilməsi və s. daxildir. Sahibkarlığın genişləndirilməsində, ölkənin iqtisadi inkişafında bu islahatların rolu əvəzsizdir. Biz qayda və qərarlara düzgün riayət edə bilsək, onları yerinə yetirsək, heç bir problemimiz olmaz.

Biz iri vergi ödəyicisiyik. Azərbaycanın vergi orqanları ilə əməkdaşlığımızdan məmnunuq. Bütün suallar vaxtında cavablandırılır, məsələlər aydınlaşdırılır, vergi ödəyiciləri vaxtlı-vaxtında maarifləndirilir. Yalnız bu təklifi verə bilərəm ki, qanunda baş verən dəyişikliklərin vergi ödəyicilərinə daha sadə dildə çatdırılması və bu sahədə şəffaflığın daha da artırılması ümumi işin xeyrinə olar.

Bu gün hamı vergi güzəşti istəyir. Lakin bunun ölkə iqtisadiyyatı üçün nə dərəcədə ziyanlı olmasını düşünənlər azdır. Vergi verməklə qürur duymaq lazımdır. Türkiyədə hər il nümunəvi vergi ödəyicisi seçilir. Hamı adını yaxşı ödəyicilər siyahısında görmək istəyir. Məncə, bunu Azərbaycanda da tətbiq etmək faydalı ola bilər. Çünki bu sahədə həvəsləndirmənin rolu böyükdür.

***«Nabucco A&C» şirkətinin direktoru Kəmaləddin Mənsimov:*** Bu gün sahibkarlığın inkişafı ilə bağlı Azərbaycan dövləti öz iradəsini nümayiş etdirir. Sahibkarlara daim diqqət göstərilir, güzəştli kreditlərin, texnikanın lizinq yolu ilə verilməsi, fermerlərə subsidiyaların ayrılması, bütövlükdə kənd təsərrüfatını, eləcə də sahibkarlığı stimullaşdıran Dövlət proqramlarının qəbul edilməsi və onların müvəffəqiyyətlə icra olunması ölkədə sahibkarlığın inkişafına münbit şərait yaradır. Bütün bunlar kiçik və orta sahibkarlığın, fermer təsərrüfatlarının daha da inkişaf etməsinə təkan verir.



Hər bir prosesdə təkmilləşmələr aparmaq, islahatlar həyata keçirmək vacibdir. Bu, vergi sisteminə də aiddir. Aparılan islahatlar önəmlidir, lakin təbliğatı elə qurmaq lazımdır ki, insanlar vergini könüllü ödəsinlər, heç kəs bunu məcburi qaydada, müxtəlif sanksiyaların təzyiqi ilə etməsin. Vergi orqanı ilə vergi ödəyiciləri arasında şəffaflıq olmalıdır. Ölkə vətəndaşı başa düşməlidir ki, vergi dövlət əhəmiyyətli məsələdir. Mən bir sahibkar kimi arzu edirəm ki, bu sahə ilə bağlı bağça və məktəblərdə maarifləndirmə tədbirləri daha keyfiyyətlə aparılsın. Körpəlikdən verginin önəmini dərk edən uşaq öz valideynlərinə də bu işə məsuliyyətlə yanaşmağı, vergiləri könüllülük prinsipi əsasında ödənilməsini aşılaya bilər. Vergi sistemi o səviyyədə təkmilləşdirilməlidir ki, həm dövlətin, həm də sahibkarın mənafeyinə uyğun olsun.

***«HAYAT CLINIC» Tibb Mərkəzinin baş direktoru Elçin Sultanov:*** Fikrimcə, sahibkarlıq fəaliyyətində uğur qazanmaq üçün məqsədyönlü, professional və strateji düşüncə qabiliyyətinə malik olmaq lazımdır.

Aparılan islahatların daha sürətli, dinamik olmasını istərdim. Hamımız bilirik ki, dünyada qloballaşma prosesi sürətli gedir və bu baxımdan, həyata keçirilən islahatlar bu prosesə operativ şəkildə uyğunlaşdırılmalıdır. Gecikmiş islahatlar ziyanlı ola bilər və bu sahədə innovativ addımlardan çəkinməməliyik. Bu bizə həm təcrübə qazanmağa, həm də daha optimal variantlar seçməyə kömək edə bilər. Ümumiyyətlə, bazar iqtisadiyyatı çeviklik, operativlik tələb edir.



**Vergi sistemi o səviyyədə təkmilləşdirilməlidir ki, həm dövlətin, həm də sahibkarın mənafeyinə uyğun olsun**

Vergi Məcəlləsində dəyişikliklərə münasibətim çox müsbətdir. Amma özəl sektorla bağlı daha ciddi islahatların aparılmasına ehtiyac olduğunu düşünürəm. Belə islahatlar iqtisadiyyatda stabillik yaradır, dövlət rəhbərliyinin də planlaşdırdığı kimi, qeyri-neft sektorunun inkişafına kömək edir. Özəl sektor tərəfindən stabil və davamlı ödənilən vergilərin, açılan yeni iş yerlərinin və s. bu kimi amillərin ölkə iqtisadiyyatının xammal asılılığını azaltdığını və dövlət büdcəsinə düşən yükü zəiflətdiyini düşünürəm.

***«U.F.E.SHIPPING» şirkətinin baş direktoru Elmir Poladov:*** Sahibkarlıq fəaliyyətində uğuru bilikdə, görülən işə sevgi və həvəslə yanaşmaqda, hər zaman yeniliklərə açıq olmaqda, daim öz üzərində çalışmaqda, öyrənməkdə, dürüstlükdə, müştəri məmnunluğunda, işə peşəkarcasına yanaşmada görürəm.



Azərbaycanda ötən illərdə qeydə alınan sürətli iqtisadi inkişafda neft sektorunun rolu aparıcı olsa da, son dövrlər qeyri-neft sektoru ümumi iqtisadi artımda önə çıxmaqdadır. Keçid dövrünü yaşamış hər bir ölkə kimi, Azərbaycan da güclü iqtisadiyyat qurmaq üçün öz təbii resurslarından faydalanaraq bu resurslardan əldə etdiyi gəlirlər hesabına iqtisadiyyatını uğurla şaxələndirə və neftdən asılılığı minimuma endirə bilib. Bu strategiya nəticəsində ölkədə tikinti, turizm, kənd təsərrüfatı, nəqliyyat, informasiya və kommunikasiya texnologiyaları sektorlarında davamlı artım tendensiyası hökm sürməkdədir. Vergi və gömrük sistemində aparılan islahatlar öz müsbət nəticəsini verməkdədir. Amma, təbii ki, zamanın yeni çağırışları da nəzərə alınmalıdır.

Vergi Məcəlləsinə edilmiş bütün dəyişikliklər milli biznesin inkişafına dəstək vermək, iş adamlarını ən zəruri informasiya ilə təmin etmək və sahibkarların fəaliyyətləri zamanı qarşılaşdıqları çətinliklərin həllində yardımçı olmaq baxımından yerində və vaxtında qəbul olunmuş qərarlardır.

**F.İKRAMQIZI**



## Vergi ödəyicisinin sualı var...

Samirə Musayeva
Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsinin rəisi vergi ödəyicilərinin suallarına cavab verir

### Nəzarət-kassa aparatlarının tətbiqi

***Səyyar və ya kütləvi ticarət yerlərində malların avtomobildən satışı zamanı nəzarət-kassa aparatı tətbiq edilirmi?***

Vergi Məcəlləsinin (VM) 16.1.8-ci maddəsinə əsasən, bu maddədə qeyd olunan fəaliyyət növləri istisna olmaqla, nağd pul hesablaşmalarını nəzarət-kassa aparatları vasitəsilə həyata keçirmək vergi ödəyicisinin vəzifəsidir.

VM-in 16.1.8.25-ci maddəsində səyyar, bazarlarda və digər kütləvi ticarət yerlərində piştaxtadan, avtomobildən və qoşqu vasitələrindən pərakəndə satış fəaliyyəti nağd pul hesablaşmalarının nəzarət-kassa aparatları tətbiq edilmədən həyata keçirilən fəaliyyət növlərinə aid olunmuşdur.

Suallarınızı redaksiyamızın ünvanına: AZ 1141, Bakı ş., Ə.Haqverdiyev küç., 60 və ya **s.musayeva@taxes.gov.az** elektron poçt ünvanına göndərə bilərsiniz

## Nağdsız ödəniş iqtisadi inkişafa və şəffaflığa xidmət edir

Azərbaycanda müasir texnologiyalar tətbiq olunduqca, o cümlədən nağdsız ödənişlər artdıqca, ödənişlərin avtomatlaşdırılması prosesi getdikcə, təəssüf ki, bəzən istehlakçıların aldadılması hallarına da rast gəlinir. «Azad İstehlakçılar» İctimai Birliyinin sədri Eyyub Hüseynov bildirib ki, istehlakçı hüquqları ilə bağlı quruma daxil olan şikayətlərdə əsasən supermarket və ticarət mərkəzlərində plastik kartla alış-veriş zamanı vətəndaşların hesablarında olan pulun çox çıxılması halları öz əksini tapır, nəticədə insanlar nağdsız ödəniş sistemindən istifadəyə həvəs göstərmirlər.

İqtisadiyyat Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidmətinin rəis müavini Araz Əliyev də belə problemlərin mövcud olduğunu təsdiqləyib. Onun sözlərinə görə, satış və xidmət obyektlərində POS-terminaldan istifadə zamanı istehlakçıların hüquqlarının pozulmasına rast gəlinir. Bir çox hallarda bu pozuntular satıcıların qeyri-peşəkarlığından irəli gəlir: «Bəzi satıcılar POS-terminaldan istifadə etməyə həvəs göstərmir və alıcıdan nağd pul almaqla işini daha da asanlaşdırmaq istəyir. Bir sıra hallarda isə vətəndaş özü POS-terminaldan istifadədə maraqlı olmur.

Məhz bu məqsədlə həyata keçirilən monitorinqlərin məqsədi POS-terminalların quraşdırıldığı ticarət, ictimai iaşə, xidmət məntəqələrində imtina hallarının səbəblərini və istehlakçıların hüquqlarının pozulub-pozulmamasını müəyyən etməkdən ibarətdir. Bəzi nöqsanlara baxmayaraq, ümumilikdə POS-terminallardan istifadə ilə bağlı problemlərin yaranmaması üçün maarifləndirmə, təbliğat-təşviqat tədbirlərinin səviyyəsi artırılıb. Ötən dövr ərzində istehlakçıların maarifləndirilməsi məqsədilə Bakıda və regionlarda müxtəlif konfrans və seminarlar təşkil edilib, 15 mindən artıq buklet, sahibkarların istehlakçıların hüquqlarının qorunması sahəsində vəzifələrinə dair isə 178 min adda buklet, sahibkarların istehlakçıların hüquqlarının qorunması sahəsində vəzifələrinə dair 6 adda 19 min yaddaş kitabçası paylanılıb».

İqtisadiyyat Nazirliyi istehlakçı hüquqlarının qorunmasının mühüm bir istiqaməti kimi ticarət, iaşə, xidmət məntəqələrində və digər obyektlərdə kassa qovşağının olması, bank terminallarının quraşdırılması və ödənişlərin kredit kartları vasitəsilə ödənilməsi imkanlarının yaradılmasına xüsusi diqqət yetirilməsidir. Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidmətinin əməkdaşları POS-terminallardan istifadə zamanı istehlakçı hüquqlarının qorunması, mal və xidmətlərin keyfiyyəti, ticarət obyektinin əlverişli iş rejimi, təcrübəli və peşəkar heyət, personalın səliqəli uniforma ilə təmin olunmasına qədər bütün məqamlara diqqət yetirirlər. Bu sahədə ictimai nəzarətin təşkili və ictimai təşkilatların rolunun artırılması da xüsusi önəm kəsb edir. Bu baxımdan, POS-terminallardan istifadə zamanı yaranan problemlər barədə vətəndaşların müvafiq dövlət orqanlarına məlumat vermələri tövsiyə edilir.

Qeyd edək ki, Vergilər Nazirliyi də vergi ödəyicilərinin obyektlərində quraşdırılmış POS-terminallardan istifadə vərdişlərinin aşılanması, eləcə də nağdsız ödənişlərin əlverişliliyi və üstünlükləri barədə geniş izahat və təbliğat işlərinin aparılmasını zəruri hesab edir. Bu məsələni diqqətdə saxlayan nazirlik tərəfindən POS-terminalların tətbiqi ilə əlaqədar vergi ödəyicilərinin məlumatlandırılması zamanı görülməli işlərə dair tövsiyələr hazırlanaraq sahibkarlara paylanılıb, müxtəlif treninqlər keçirilib. Bu tədbirlərin məqsədi həm də təsərrüfat subyektlərini istehlakçıların hüquqlarını qorumağa dəvət etməkdir.

**Elbrus CƏFƏRLİ**

## ELAN

Asan İmza sertifikatının qüvvədə olma müddəti 3 il olduğundan və 2013-cü ilin iyul ayında alınmış sertifikatların etibarlılıq müddəti 2016-cı ilin iyul ayında bitdiyindən, yeni Asan İmza sertifikatı almaq üçün «ASAN xidmət» və Vergi ödəyicilərinə xidmət mərkəzlərinə (http://www.taxes.gov.az/xidmetmerkezleri) müraciət etmək lazımdır.

Vergilər Nazirliyinin 195-1 Çağrı Mərkəzinə, nazirliyin rəsmi internet səhifəsinin «Sual-cavab» bölməsinə (www.taxes.gov.az/ www.taxes/faq/sual.html), asxm.gov.az internet ünvanına və ya info@asxm.gov.az elektron poçtuna müraciət etməklə məsələ ilə bağlı əlavə məlumat almaq olar.

**Vergilər Nazirliyinin Asan Sertifikat Xidmətləri Mərkəzi**

# Bələdiyyələrin vergi sahəsində səriştələrinin artırılmasına xüsusi önəm verilir

**Vergilər Nazirliyinin Şamaxı rayonunda yerləşən Tədris Mərkəzində «Yerli (bələdiyyə) vergilərin və ödənişlərin hesablanması və ödənilməsi, Bələdiyyələrin Vergi İnformasiya Sistemində iş prosedurları» mövzusunda təlim keçirilmişdir.**

Təlim çərçivəsində Vergilər Nazirliyinin yüksək səlahiyyətli şəxslərinin, Tədris Mərkəzinin müəllim heyətinin, rayonlar üzrə bələdiyyə rəhbərliklərinin və «Cybernet» şirkətinin nümayəndələrinin iştirak etdikləri görüşdə mərkəzin direktoru Əli Həsənov yerli (bələdiyyə) vergilər və ödənişlərlə bağlı mövcud vəziyyət, daxilolmaların həcmi, anlaşılmazlıqlar və onların həlli yolları haqqında ümumi məlumat vermişdir. Bildirilmişdir ki, Azərbaycan Respublikası Prezidentinin «Yerli (bələdiyyə) vergilər və ödənişlər haqqında» Qanunun tətbiq edilməsi barədə» 4 aprel 2002-ci il tarixli fərmanına əsasən, bələdiyyələrə yerli vergilərin və ödənişlərin düzgün hesablanmasına, tam və vaxtında ödənilməsinə, habelə vergi qanunvericiliyinə dəqiq riayət edilməsinə metodiki rəhbərliyi Vergilər Nazirliyi həyata keçirir. Vergilər nazirinin əmri ilə yerli (bələdiyyə) vergi və ödənişlərin hesablanması, ödənilməsi qaydalarının təkmilləşdirilməsi və bu sahədə uçotun, habelə yerli (bələdiyyə) vergilərin ödəyiciləri olan fiziki şəxslərin uçotunun elektron qaydada aparılmasının təmin edilməsi məqsədilə müvafiq metodiki vəsaitlər təsdiq edilmişdir. Nazirliyin aidiyyəti struktur vahid və bölmələrinə 2014-cü ildə Bakı şəhərinin Binəqədi, Abşeron rayonunun Saray və Şəmkir rayonunun Şəmkir bələdiyyələrində yerli (bələdiyyə) vergilərin ödəyiciləri olan fiziki şəxslərin, habelə yerli (bələdiyyə) vergi və ödənişlərin uçotunun tətbiqi üzrə pilot layihənin həyata keçirilməsi tapşırılmış və layihə uğurla başa çatdırılmışdır.

Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsinin Strateji araşdırmalar idarəsinin rəisi Namiq Dərgahov bələdiyyə nümayəndələrinə yerli (bələdiyyə) vergi və ödənişlərin hesablanması, ödənilməsi və uçotu, habelə vergi və ödənişlərin elektron uçotu haqqında məlumat vermişdir. Bildirilmişdir ki, qanunvericiliyə edilən dəyişikliyə əsasən, 2015-ci il yanvarın 1-dən yerli vergi və ödənişlər banklar, poçt rabitəsinin milli operatoru, habelə mövcud nağdsız ödəmə vasitələri ilə həyata keçirilir. Qeyd olunmuşdur ki, bələdiyyələr tərəfindən yerli vergi və ödənişlərin nağd şəkildə qəbul olunması qadağandır: «Yerli (bələdiyyə) vergi və ödənişlərin ödənilməsində şəffaflığın təmin edilməsi və bu sahədə nağdsız hesablaşmalardan geniş istifadə edilməsi məqsədilə bələdiyyələrə ödənilən vergi və ödənişlərin Mərkəzi Bank (MB) tərəfindən yaradılmış «Hökumət ödəniş portalı» (HÖP) vasitəsilə yığılması barədə MB-yə müraciət edilmiş və pilot kimi seçilmiş 10 bələdiyyə həmin portala inteqrasiya olunmuşdur. Yerli vergi ödəyiciləri HÖP-ə qoşulmuş bələdiyyə orqanları üzrə ölkənin istənilən regionunda «Azərpoçt» MMC-nin və 36 bankın 2000-ə yaxın ödəniş məntəqəsində, infrastruktura inteqrasiya olunmuş özünəxidmət terminallarında nağd formada, həmçinin ödəniş kartlarından istifadə etməklə HÖP-ün internet resursları və «Elektron hökumət» portalı vasitəsilə nağdsız formada ödənişlərini həyata keçirə bilərlər».

Təlim prosesində mövzu ətrafında müzakirələr aparılmış, əmlak vergisinin ödənilməsi mexanizmləri, vətəndaşların istifadəsində və mülkiyyətində olan, eləcə də bələdiyyənin mülkiyyəti hesab edilən torpaqların satılması və icarəyə verilməsinə vergi hesablanması ilə bağlı suallar cavablandırılmışdır.

Yerli (bələdiyyə) vergilərin ödəyiciləri olan fiziki şəxslərin və sahibkarlıq fəaliyyəti subyektlərinin uçota alınması mövzusunu Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsinin Vergi siyasəti idarəsinin Vergi qanunvericiliyinin tətbiqi şöbəsinin rəisi Əvəz Quliyev şərh etmişdir. Qeyd olunmuşdur ki, Vergilər Nazirliyinin sifarişi əsasında yerli (bələdiyyə) vergi və ödənişlərin hesablanması, ödənilməsi qaydaları təkmilləşdirilmişdir. Bu sahədə uçotun, habelə yerli (bələdiyyə) vergilərin ödəyiciləri olan fiziki şəxslərin uçotunun elektron qaydada aparılmasının təmin edilməsi məqsədilə 5 altsistemdən (bəyannamə, iş qovluğu, kargüzarlıq, şəxsi hesab vərəqəsi, uçot) ibarət «Bələdiyyə Vergi İnformasiya Sistemi» (BVİS) proqram təminatı hazırlanaraq pilot layihənin həyata keçirildiyi bələdiyyələrdə quraşdırılmışdır. Hazırda həmin proqram təminatının istifadə qaydalarını əks etdirən müvafiq istifadəçi təlimatı fəaliyyət göstərir. Bildirilmişdir ki, yerli (bələdiyyə) vergi ödəyicilərinin istifadəsi üçün «İnternet Bələdiyyə İdarəsi» (www.e-belediyye.gov.az) yaradılmış və vergi ödəyiciləri bu ünvana daxil olmaq üçün bələdiyyələrdən şifrə və parol almaqla və ya «ASAN imza» və mobil imzadan istifadə etməklə bələdiyyələrin təqdim etdikləri elektron xidmətlərdən yararlana bilərlər: «Bu elektron xidmətlərə yerli vergi ödəyicilərinin torpaq və əmlakının onlayn qeydiyyata alınması, yenidən qeydiyyatı və qeydiyyatdan çıxarılması, şəxsi hesab vərəqəsinə baxış, hesablanmış vergilərə dair bildirişlərin əldə edilməsi, yerli (bələdiyyə) vergi ödəyicilərinin qeydiyyatda olduğu bələdiyyəyə onlayn müraciəti və digər elektron xidmətlər daxildir. Vergilər Nazirliyinin rəsmi internet səhifəsində (www.taxes.gov.az) yaradılmış «Bələdiyyə» bölməsində də bələdiyyələrin fəaliyyətinə aid olan bütün normativ hüquqi aktlar və metodiki vəsaitlər yerləşdirilmişdir».

Mehmanxanalara vergi hesablanmasında çətinliklərlə üzləşdiklərini bildirən bələdiyyə nümayəndəsinin qaldırdığı məsələ ilə bağlı qeyd edilmişdir ki, bu gün bələdiyyələri daha çox narahat edən məsələ Bakı şəhərində avtomobil dayanacaqlarına və mehmanxanalara vergi hesablanmasıdır - bunlara nəzarət etmək xeyli çətindir. Bu sahədə məlumatları dəqiqləşdirmək üçün xronometraj baxış yoxlaması keçirilir: «Amma bələdiyyələrin belə imkanı yoxdur. Onlar yalnız səyyar vergi yoxlamalarına müraciət edib iştirak hüququ qazana bilərlər. Bununla da bələdiyyələr onlara verilən hesabatla bizə verilən hesabatı tutuşdurub, məlumatın dəqiqliyini yoxlaya bilərlər».

Vergilər Nazirliyinin Tədris Mərkəzinin «Vergi metodologiyası» kafedrasının müəllimi Azər Mustafayev yerli vergi və ödənişlər haqqında qanun, bələdiyyə mülkiyyətində olan hüquqi şəxslərin mənfəət vergisinin hesablanması və ödənilməsi, eləcə də fiziki şəxslərin əmlak və torpaq vergilərinin, yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisinin hesablanması və ödənilməsi ilə bağlı suallara aydınlıq gətirmişdir. Təlim iştirakçılarına əmlak, torpaq, mədən vergisinin dərəcələri və hesablanma qaydaları açıqlanmışdır.

«Cybernet» şirkətinin nümayəndəsi Elvin Hacıbalayevin iştirakçılara keçdiyi təlim zamanı diqqət ona yönəldilmişdir ki, hazırda BVİS proqram təminatı Bakı şəhəri Binəqədi rayonunun M.Ə.Rəsulzadə, Binəqədi qəsəbə, Binəqədi, Xocahəsən və Biləcəri bələdiyyələrində, Sabunçu rayonunun Bakıxanov və Ramana, Suraxanı rayonunun Qaraçuxur, Səbail rayonunun Badamdar, Xəzər rayonunun Şağan və Mərdəkan, Qaradağ rayonunun Sahil və Lökbatan, Yasamal rayonunun Yasamal, Abşeron rayonunun Saray, Mehdiabad, Masazır və Xırdalan, Şəmkir rayonunun Şəmkir, Sumqayıt şəhərinin Sumqayıt bələdiyyələri olmaqla cəmi 20 bələdiyyədə quraşdırılmışdır. Bununla yanaşı, digər bələdiyyələrdən müraciət daxil olduqda həmin bələdiyyələrdə də müvafiq proqram təminatı quraşdırılır. E.Hacıbalayev BVİS-in altsistemləri və onların xüsusiyyətləri haqqında da məlumat vermiş, yerli verginin ödəyicisi olan fiziki şəxslərin uçota alınması prosedurlarını izah etmişdir.



...Tədbirdən sonra söhbətləşdiyimiz iştirakçılar təlimin yüksək səviyyədə təşkil olunduğunu bildirdilər. Astara bələdiyyəsinin sədri Aygül Məmmədova bələdiyyələrə göstərilən dövlət qayğısını müsbət qiymətləndirdiyini vurğuladı: «Təbii ki, qanunvericilikdə hər şey aydın izah olunub. Artıq il yarım bu sahədə çalışan şəxs kimi, təcrübəmə əsasən deyə bilərəm ki, mövcud qanunların işləmə mexanizmlərinin yaradılmasına ciddi ehtiyac var. Məsələn, mən rəhbərlik etdiyim bələdiyyədə vergi xidməti qurmaq istəyirəm. Bununla bağlı müvafiq əsasnaməmiz olsa da bu sahədə tətbiq və iş mexanizmi yoxdur. Bu təlim bizim təkmilləşməyimizə yardım etdi. BVİS proqramından gözləntilərimiz çoxdur. Yəqin ki, bələdiyyələrin vergiyığma sahəsindəki çətinlikləri, narahatlıq doğuran problemləri bu sistem vasitəsilə aradan qaldırılacaq».

Səbail rayon bələdiyyəsinin sədr müavini Qurban Abbasov: «Bələdiyyələrin ilk qurucularından biri kimi, bu işdə kifayət qədər təcrübəm var. Bələdiyyə sahəsindəki yeniliklər zamanı bizim də təkliflərimiz diqqətdən kənarda qalmayıb. Bu gün də təklif verdim ki, hotellərdə rüsumların yığılmasında bələdiyyələrin roluna xüsusi diqqət ayrılsın, belə olsa işimiz xeyli yüngülləşər, yığılan vergilərin səviyyəsi yüksələr və daxilolmalarımız da artar».

**Fəxriyyə İKRAMQIZI**

# Avtonəqliyyat xidməti göstərən şəxslərin vergi öhdəlikləri

Avtomobil nəqliyyatı vasitələri ilə sərnişin və yük daşımalarını həyata keçirən vergi ödəyiciləri hər ay üçün vergi ödəməlidirlər. Mülkiyyətində və ya istifadəsində olan avtonəqliyyat vasitələri ilə (beynəlxalq yük və sərnişin daşımaları istisna olmaqla) Azərbaycan Respublikasının ərazisində sərnişin və yük daşımalarını (o cümlədən taksi ilə) və yaxud həmin daşımaları müqavilə əsasında digər şəxslər vasitəsilə həyata keçirən şəxslər sadələşdirilmiş verginin ödəyiciləri hesab olunurlar. Bu şəxslərin mülkiyyətində və ya istifadəsində olan avtomobil nəqliyyatı vasitələri sadələşdirilmiş verginin vergitutma obyektidir və sözügedən vergi cədvəldəki kimi müəyyən olunmuşdur:

Avtomobil nəqliyyatı vasitəsilə sərnişin və yük daşımalarına görə aylıq sadələşdirilmiş vergi hər bir avtonəqliyyat vasitəsi üçün - cədvəldə göstərilmiş sadələşdirilmiş verginin ölçü vahidini verginin aylıq məbləğinə və daşımanın həyata keçirildiyi ərazidən asılı olaraq müəyyən edilmiş əmsala vurmaqla hesablanır və dövlət büdcəsinə ödənilir.

**Misal:** Oturacaqlarının sayı 17 olan mikroavtobusla Bakı şəhərində sərnişin daşımasını həyata keçirirsiniz. Bu zaman ödəyəcəyiniz verginin aylıq məbləği aşağıdakı kimi hesablanacaq:

Oturacaqların sayı 17 olduğu halda, sadələşdirilmiş verginin aylıq məbləği 17 x 1,8 = 30,6 manat olacaq və sizin fəaliyyətiniz Bakı şəhərində həyata keçirildiyindən ödəyəcəyiniz sadələşdirilmiş verginin aylıq məbləği 30,6 x 2= 61,2 manat olacaqdır.

Vergi ödəyicisi təqvim ayının sonunadək ərizə ilə birlikdə sadələşdirilmiş verginin tam məbləğdə ödənilməsini təsdiq edən bank ödəniş sənədini təqdim etməklə öz istəklərinə uyğun olaraq növbəti ay, rüb, yarımil və ya il üçün ciddi hesabat blankı olan «Fərqlənmə nişanı» alır. Artıq taksi fəaliyyəti üçün lisenziya və fərqlənmə nişanı «ASAN xidmət» tərəfindən verilir. Bu yenilik Prezident İlham Əliyevin imzaladığı «Dövlət xidmətlərinin göstərilməsində şəffaflığın artırılması, yaşayış yeri üzrə qeydiyyat və lisenziyalaşdırma prosedurlarının elektronlaşdırılması sahəsində bəzi tədbirlər haqqında» fərmanda öz əksini tapıb. Fərmana əsasən, «ASAN xidmət»in göstərdiyi xidmətlərin sırasına taksi fəaliyyəti üçün xüsusi razılıq (lisenziya), eləcə də taksi avtomobillərinə «Fərqlənmə nişanı»nın verilməsi əlavə edilib. Həmçinin, Nəqliyyat Nazirliyinə tapşırılıb ki, taksilərə lisenziya və «Fərqlənmə nişanı»nın verilməsi xidmətlərinin «ASAN xidmət» mərkəzlərində həyata keçirilməsini təmin etsin.

«Fərqlənmə nişanı» vergi ödəyicisinin ərizəsinə əsasən 2 iş günündən gec olmayaraq verilir. Avtonəqliyyat xidməti göstərən şəxslər tərəfindən ödənilmiş vergi onların həmin ayda fəaliyyət göstərib-göstərməməsindən asılı olmayaraq, geri qaytarılmır və növbəti ayın vergiləri ilə əvəzləşdirilmir. Avtonəqliyyat vasitəsinin sahibi və ya istifadəçisi dəyişdikdə, həmin nəqliyyat vasitəsinə sonrakı aylar üçün əvvəlki sahib və ya istifadəçi tərəfindən qabaqcadan ödənilmiş vergilər nəzərə alınır və verginin ödənildiyini təsdiq edən «Fərqlənmə nişanı»nın yenidən rəsmiləşdirilməsi tələb olunmur.

Sadələşdirilmiş verginin ödənilməsinə avtonəqliyyat vasitəsinin sahibi, nəqliyyat vasitəsi vəkalətnamə (etibarnamə) və ya icarə müqaviləsi əsasında istifadə edildikdə isə vəkalətnamə (etibarnamə) və ya icarə müqaviləsi ilə idarə edən şəxslər məsuliyyət daşıyır. Hüquqi şəxs özünə məxsus avtomobil nəqliyyatı vasitələri ilə daşımaları həyata keçirdikdə, sadələşdirilmiş vergi onun tərəfindən ödənilməlidir. Fəaliyyəti yalnız avtomobil nəqliyyatı vasitələri ilə sərnişin və yük daşımalarından ibarət olan vergi ödəyiciləri vergi orqanlarına bəyannamə vermirlər.

| Daşınma növü | Ölçü vahidi | Verginin aylıq məbləği (manatla) |
|---|---|---|
| Sərnişin daşınması (taksi istisna olmaqla), oturacaq yerlərinin sayına görə | 1 oturacaq yeri üçün | 1,8 |
| Taksi ilə sərnişin daşınması | 1 ədəd nəqliyyat vasitəsi üçün | 9 |
| Yükdaşıma | Yükgötürmə qabiliyyəti üçün (hər tona) | 1 |

Sadələşdirilmiş verginin məbləği sərnişin və yük daşınmasının həyata keçirildiyi ərazidən asılı olaraq, cədvəldə göstərilmiş vergi məbləğinə xüsusi əmsallar tətbiq olunmaqla müəyyən edilir. Daşımalar Bakı şəhərində (kənd və qəsəbələr daxil olmaqla) və Bakı şəhəri ilə ölkənin digər yaşayış məntəqələri arasında həyata keçirildikdə bu əmsal 2-yə, Abşeron rayonu, Sumqayıt, Gəncə şəhərlərində və həmin rayon və şəhərlərlə digər yaşayış məntəqələri arasında (Bakı şəhəri istisna olmaqla) həyata keçirildikdə 1,5-ə bərabər olur. Daşıma digər şəhər və rayonlarda və həmin şəhər və rayonlarla yaşayış məntəqələri arasında həyata keçirildikdə (Bakı, Sumqayıt, Gəncə şəhərləri və Abşeron rayonu istisna olmaqla) 1,0 əmsal tətbiq edilir.

Avtomobil nəqliyyatı vasitələrində (taksi istisna olmaqla) oturacaq yerlərinin sayı və ya yükgötürmə qabiliyyəti avtomobil nəqliyyatı vasitələrinin qeydiyyat şəhadətnaməsinə əsasən müəyyən edilir.

Avtomobil nəqliyyatı vasitələrindəki (taksi istisna olmaqla) oturacaq yerlərinin sayı və ya yükgötürmə qabiliyyəti həmin nəqliyyatı vasitələrinin qeydiyyat şəhadətnaməsində göstərilmədikdə, bu göstəricilər Daxili İşlər Nazirliyi tərəfindən vergi orqanlarına verilmiş arayışlar əsasında müəyyən edilir. Oturacaq yerlərinin sayını avtomobil nəqliyyatı vasitələrinin qeydiyyat şəhadətnaməsi və ya Daxili İşlər Nazirliyi tərəfindən verilmiş arayışlar əsasında müəyyən etmək mümkün olmadıqda, sadələşdirilmiş verginin məbləği yerlərin faktiki sayına görə müəyyən edilir.

Vergi ödəyicilərinin mülkiyyətində olan avtomobil nəqliyyatı vasitələri ilə öz istehsal fəaliyyətini təmin etmək üçün işçilərinin və özünə məxsus yüklərinin daşınmasında istifadə olunan avtomobil nəqliyyatı vasitələri sadələşdirilmiş vergiyə cəlb edilmir və bu nəqliyyat vasitələri üçün heç bir haqq ödənilmədən «Xüsusi fərqlənmə nişanı» alınır. Bu nişanı almış vergi ödəyiciləri avtomobil nəqliyyatı vasitələrini satarkən və ya icarəyə verərkən, habelə digər məqsədlər üçün istifadə edərkən ən azı 1 iş günü əvvəl bu nişanı geri qaytarmalıdır.

Xüsusi nişan və avadanlıqlarla təchiz olunmuş xüsusi təyinatlı (sahibkarlıq fəaliyyəti çərçivəsində onlara digər vergi ödəyiciləri tərəfindən göstərilən bu cür xidmətlər istisna olmaqla), habelə dövlət hakimiyyəti orqanlarının, büdcə təşkilatlarının və yerli özünüidarəetmə orqanlarının, Mərkəzi Bankın, hasilatın pay bölgüsü, əsas ixrac boru kəməri haqqında və bu qəbildən olan digər sazişlər çərçivəsində fəaliyyət göstərən xarici podratçıların və subpodratçıların, dövlət fondlarının, xarici ölkələrin diplomatik və konsulluq nümayəndəliklərinin, beynəlxalq təşkilatların nümayəndəliklərinin rəsmi istifadəsi üçün nəzərdə tutulan avtomobil nəqliyyatı vasitələri üçün «Fərqlənmə nişanı» və ya «Xüsusi fərqlənmə nişanı» alınmır. «Fərqlənmə nişanı» olmadan avtomobil nəqliyyatı vasitələri ilə sərnişin və ya yük daşınmasına görə 40 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir.

**Rəşad SADIQOV**

## RƏQƏMLƏRİN DİLİ İLƏ

- Manatın devalvasiyası çərçivəsində ARDNF-nin investisiya portfelinə daxil olan valyuta və aktivlərin manat ifadəsi ilə dəyərinin artması səbəbindən, Fondun ümumilikdə **23 milyard 217,8 milyon** manat, o cümlədən ABŞ dolları, avro, ingilis funt sterlinqi və digər valyutaların manata qarşı məzənnəsinin artması ilə əlaqədar **22,501 milyard** manat büdcədənkənar gəliri yaranıb.
- Ötən ay daşınmaz əmlakın icbari sığortası üzrə **11 min 639** sığorta müqaviləsi bağlanılıb.
- Azərbaycan Mərkəzi Bankının sərəncamında olan rəsmi valyuta ehtiyatlarının həcmi iyulun 1-nə **4 milyard 283,9 milyon** ABŞ dolları təşkil edib.
- Sahibkarlıq fəaliyyətinə və gənclərin məşğulluğunun artırılmasına dəstək məqsədilə iyunun 1-dək 5100-dən çox gənc sahibkara **355,2 milyon** manat güzəştli kredit verilib.
- Yanvar-iyun ayları ərzində avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası üzrə **527 min 894** sığorta müqaviləsi bağlanılıb.
- İcbari Sığorta Bürosu 4 il ərzində **1 milyon** manat məbləğində kompensasiya ödənişi həyata keçirib.

## BİR CÜMLƏ - BİR XƏBƏR

«Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri»nə müvafiq olaraq, inkişaf planlarının işlənilməsi məqsədilə yaradılmış işçi qrup 10 kitabdan ibarət ilk toplu hazırlayıb.

İyulun 15-də Bakıda Azərbaycan-Belarus biznes forumu keçiriləcək.

Almaniyanın «Eurasia News» xəbər saytında «Macarıstan Azərbaycanı yeganə enerji alternativi kimi görür» adlı məqalə yayılıb.

Fransada turizm sahəsində ixtisaslaşmış nüfuzlu www.quotidiendutourisme.com saytında Azərbaycanın turizm imkanları haqqında məqalə dərc olunub.

Bakıda «Şimal-Cənub» Beynəlxalq Nəqliyyat Dəhlizi ilə bağlı Azərbaycan, İran və Rusiya dəmiryolçuları arasında üçtərəfli görüşlər keçirilib.

Qazaxıstanın Aktau şəhərində Azərbaycanın ilk logistik mərkəzi yaradılıb.

«Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi» QSC yaxın vaxtlarda korporativ idarəetmə üzrə müvafiq reytinqin alınmasını planlaşdırır.

Çin İpək Yolu iqtisadi qurşağında və XXI əsrin dəniz İpək Yolunda yerləşən ölkələr arasında neft-qaz əməkdaşlığını genişləndirməyi təklif edib.

# Azərbaycan ilə Fransa arasında kənd təsərrüfatı sahəsində əlaqələr müzakirə edilib

İyunun 30-da Azərbaycan kənd təsərrüfatı nazirinin müavini İlham Quliyev Fransanın mərkəzləşdirmə və regionlararası əməkdaşlıq üzrə Milli Komissiyanın baş katibi, Xarici İşlər və Beynəlxalq İnkişaf Nazirliyinin yerli hakimiyyətlərin xarici fəaliyyəti üzrə xüsusi nümayəndəsi Bertran Forun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb. Görüşün məqsədi iki ölkə arasında kənd təsərrüfatı sahəsində əlaqələrin müzakirəsi olub.

Nazir müavini son dövrlərdə ölkəmizdə kənd təsərrüfatı sahəsində həyata keçirilən islahatlar, ölkə rəhbərliyinin aqrar sahəyə göstərdiyi diqqət və qayğı, aqrar sahənin inkişafı ilə bağlı qəbul olunmuş qərar və sərəncamlar, həmçinin hökumət tərəfindən kənd təsərrüfatının müxtəlif sahələrinə ayrılan subsidiyalar barədə geniş məlumat verib və Azərbaycanda aqrar sahədə əlverişli investisiya mühitinin olduğunu nəzərə çatdırıb. İ.Quliyev Azərbaycan ilə Fransa arasında kənd təsərrüfatı sahəsində əməkdaşlığın daha da dərinləşməsi üçün geniş imkanların olduğunu söyləyib. Xatırladıb ki, Azərbaycanda kənd təsərrüfatı heyvanlarının cins tərkibinin yaxşılaşdırılması məqsədilə Fransanın Şarole cinsindən olan damazlıq heyvanlar (alpin keçiləri) Aqrolizinq ASC vasitəsilə Azərbaycana gətirilib. Həmçinin Quba Regional Aqrar Elm Mərkəzi «Frazer» layihəsi çərçivəsində respublikamıza virussuz tinglər gətirib və intensiv tipli meyvə bağları salınıb. Fransanın «İMV Technologies» müəssisəsindən Respublika Süni Mayalama Mərkəzi üçün süni mayalama avadanlıqları alınıb və bu avadanlıqlar Mərkəzdə fransız mütəxəssislər tərəfindən quraşdırılıb. İ.Quliyev Gəncə şəhərində təşkil olunmuş Beynəlxalq Üzüm və Şərab Festivalında Fransa nümayəndə heyətinin də fəxri qonaq qismində geniş tərkibdə iştirak etdiyini diqqətə çatdırıb.

Bertran For Azərbaycanın meyvə və tərəvəz məhsullarının ekoloji baxımdan təmiz olmasının artıq Avropada bəlli olduğunu qeyd edib və ölkələrimiz arasında kənd təsərrüfatı sahəsində əməkdaşlığa önəm verilməsini yüksək qiymətləndirib. Qonaq iqtisadiyyatın bu sahəsi üzrə iki ölkə arasında əlaqələrin daha da inkişaf etməsi üçün səylərini əsirgəməyəcəyini bildirib.

# Daşınmaz əmlakın dövlət qeydiyyatı prosedurları elektronlaşdırılır

Əmlak Məsələləri Dövlət Komitəsi torpaq (ƏMDK) və digər daşınmaz əmlaklar üzərində mülkiyyət hüququnun qeydiyyatının sadələşdirilməsi, daşınmaz əmlakların sənədləşdirilərək leqallaşdırılması, eləcə də əmlak sahiblərinin hüquqlarının qorunması ilə bağlı yeniliklərin tətbiqini davam etdirir.



Hazırda ƏMDK Azərbaycanın daşınmaz əmlak sektorunda əhəmiyyətli inkişafa səbəb olacaq növbəti böyük layihəni reallaşdırır. Komitədən verilən məlumata görə, Azərbaycan və Almaniya hökumətləri arasındakı müqaviləyə uyğun olaraq, Gəncə və Şəkidə «Kadastr və daşınmaz əmlakın qeydiyyatı» layihəsi artıq yekunlaşmaq üzrədir. 2013-cü ildə start verilən layihə Gəncə və Şəkinin bütün ərazisi üzrə daşınmaz əmlaklar haqqında elektron kadastr məlumat bazasının və rəqəmsal kadastr xəritələrinin yaradılmasını nəzərdə tutur. Göründüyü kimi, komitə alman təcrübəsinin Azərbaycana gətirilməsinə və uğurla reallaşdırılmasına nail olub. Bu nailiyyət daşınmaz əmlakın kadastrı və qeydiyyatında elektron idarəetmənin və vahid bazanın formalaşmasında mühüm rol oynayacaq.

Layihə sayəsində, ilk növbədə, Gəncə və Şəkidə daşınmaz əmlaklarla bağlı bütün məlumatlar - onların yeri, koordinatları və ölçüləri müasir texnologiyalar vasitəsilə dəqiqləşib. Bununla da indiyədək mövcud olmuş anlaşılmazlıqlar və qeyri-dəqiqliklər aradan qalxacaq. Əhalinin əmlak sənədlərinin öyrənilməsi nəticəsində daşınmaz əmlakın sənədləşdirilməsinin hansı səviyyədə olduğu müəyyən ediləcək ki, bu da Gəncə və Şəki əhalisi üçün sənədləşdirilmiş torpaq və daşınmaz əmlakdan səmərəli istifadə etməyə imkan verəcək. Bununla yanaşı, layihə zamanı toplanan məlumatlar daşınmaz əmlak üzərində hüquqların qeydiyyatı prosesində bir sıra çətinliklərin həllinə kömək edəcək. Daşınmaz əmlakın dövlət qeydiyyatı ilə bağlı prosedurları sadələşəcək, qeydiyyata sərf olunan vaxt azalacaq, məlumatların dəqiqliyi təmin olunacaq. Nəticədə əhaliyə göstərilən xidmət səviyyəsi, habelə şəffaflıq və operativlik daha da artacaq.

Xatırladaq ki, 2013-cü ildən başlanan layihənin Gəncədə icrası artıq yekunlaşıb və şəhərin mükəmməl elektron kadastr informasiya bazası yaradılıb. 2016-cı ilin sentyabrında isə Şəkidə layihənin tamamlanması nəzərdə tutulur. Ötən müddətdə həm Almaniyadan olan məsləhətçilər, həm də yerli özəl şirkətlər layihənin icrasında birbaşa iştirak ediblər. Layihə çərçivəsində aparılan kadastr işlərinə yerli özəl qurumlar da cəlb edilib.

**Fəxriyyə İKRAMQIZI**

# Gənc sahibkarlara dövlət dəstəyi gücləndirilir

İqtisadiyyat Nazirliyi iqtisadi layihələrdə xüsusi fəallıq nümayiş etdirən gənc sahibkarlar üçün stimullaşdırıcı tədbirlər görməyi planlaşdırır. İqtisadiyyat nazirinin müavini Sahib Məmmədov bildirib ki, gənclərə verilən güzəştli kreditlərin həcminin artırılması, dövlət dəstəyi tədbirlərinin gücləndirilməsi, regionlarda yeni biznes layihələrinin həyata keçirilməsində onlara üstünlük verilməsi nəzərdə tutulur. Gənc sahibkarlar indiyədək Sahibkarlığa Kömək Milli Fondunun (SKMF) xətti ilə 355 milyon manatdan artıq güzəştli kredit əldə ediblər. Ayrılan vəsaitlər hesabına gənclərin həyata keçirdiyi investisiya layihələri sayəsində 15,3 mindən çox yeni iş yeri açılıb. Gənclər arasında sahibkarlığın inkişaf etdirilməsi və sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq istəyənlərə dəstək verilməsi ilə bağlı təkliflər hazırlanıb, güzəştli maliyyə mexanizmindən səmərəli istifadə, gənclərin yeni layihələrə cəlb edilməsi kimi təkliflərə baxılıb və təkliflərin təkmilləşdirilməsi üçün aidiyyəti qurumla müvafiq iş aparılmaqdadır.

Həyata keçirilən tədbirlər bölgələri də əhatə edir. Regionlarda gənclərin məşğulluğunun inkişaf etdirilməsi və əmək ehtiyatlarının keyfiyyətcə yaxşılaşdırılması istiqamətində iqtisadi maarifləndirmə, məsləhət xidmətinin genişləndirilməsi, məşğulluq və sahibkarlıq fəaliyyəti sahəsində qabaqcıl təcrübənin öyrənilməsi, sərhədyanı bölgələrdə biznesə başlamaq istəyən gənclərə dəstək göstərilməsi və işsizliyin aradan qaldırılması məqsədilə bir sıra tədbirlər keçirilib. «Sahibkarlığın inkişafına dövlət dəstəyi» layihəsi çərçivəsində iqtisadi rayonlarda keçirilən tədbirlərdə gənc sahibkarların və yeni sahibkarlıq fəaliyyətinə başlamaq istəyən gənclərin təqdim etdikləri layihələrin maliyyələşdirilməsi müzakirə olunub, bir sıra layihələr SKMF tərəfindən maliyyələşdirilib. S.Məmmədov qeyd edib ki, sahibkarlığa cəlb edilməklə gənclər iqtisadiyyatın inkişafına dəstək olmalıdırlar. Hökumət sahibkarlığa iddialı şəxslərə innovativ düşüncə aşılamağı və biznes ideyasını reallaşdırmağı prioritet hesab edir. Hazırda regionlarda yaradılan kiçik və orta sahibkarlıq müəssisələrində, biznes-inkubatorlarda, sənaye texnoparklarında potensial qüvvə kimi gənc sahibkarlara dəstək verilməkdədir. Qarşıdakı dövrdə yeni ideya və layihələrlə müraciət edən gənclərə biznesin planlaşdırılması və idarə edilməsi, investisiya layihələrinin və biznes planlarının hazırlanması, marketinq araşdırmalarının aparılması, potensial biznes tərəfdaşları ilə əlaqələrin qurulması və digər sahələr üzrə kömək göstəriləcək.

> *
> ***Qarşıdakı dövrdə yeni ideya və layihələrlə müraciət edən gənclərə biznesin planlaşdırılması və idarə edilməsi, investisiya layihələrinin və biznes planlarının hazırlanması, marketinq araşdırmalarının aparılması, potensial biznes tərəfdaşları ilə əlaqələrin qurulması və digər sahələr üzrə kömək göstəriləcək.***
> *

Regionlarda yeni yaradılan kənd təsərrüfatı və aqrar-sənaye müəssisələri ilə bağlı layihələrin həyata keçirilməsində də gənc sahibkarlara dəstək tədbirləri davam etdiriləcək. Gənclərin məşğulluğunun təmin edilməsinə dair Dövlət Proqramına uyğun olaraq, sərhədyanı və dağlıq ərazilərə köçən fermer təsərrüfatı və digər sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq istəyən gənclər tərəfindən özəl toxumçuluq və heyvandarlıq təsərrüfatlarının yaradılmasına dəstək göstərilməsi, «Aqrolizinq» ASC-nin ölkəmizə idxal etdiyi kənd təsərrüfatı texnikasının bir hissəsinin gənc sahibkarlara lizinq yolu ilə verilməsi də bu tədbirlər sırasındadır.

Azərbaycan Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası da gənc sahibkarların stimullaşdırılması və təşviq edilməsi üçün müxtəlif tədbirlər həyata keçirməyi planlaşdırır. Təşkilatın sədr müavini Fuad Hüseynovun sözlərinə görə, gənclərin sahibkarlıq fəaliyyətinin dəstəklənməsi və məşğulluğun təmin edilməsi, iqtisadi fəallığının artırılması və onların sahibkarlıq fəaliyyətinə həvəsləndirilməsi müasir dövrün çağırışlarındandır. Konfederasiya gənclər arasında bu sahə üzrə intellektual müsabiqələr keçirməyi məqsədəuyğun hesab edir.

Gənc sahibkarlara dövlət dəstəyi tədbirlərini davam etdirən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi isə «özünədəstək» mexanizmi çərçivəsində gənc ailələrdə məşğulluqla bağlı problemlərin aradan qaldırılması məqsədilə müxtəlif addımlar atmaqdadır. Hazırda iki istiqamətdə: gənclərə şəxsi yardımçı təsərrüfatın inkişafında dəstək göstərilməsi, eləcə də onların əmtəə və xidmətlərin istehsalı üzrə əmək fəaliyyətinə cəlb edilməsi istiqamətlərində iş aparmaq planlaşdırılır. «Özünədəstək» proqramı ünvanlı sosial yardım proqramının mövcud büdcəsi tərkibində maliyyələşdiriləcək. Proqramda iştirak edəcək ailə ünvanlı sosial yardım almayacaq və ona verilən vəsait birbaşa sahibkarlığın inkişafına yönəldiləcək. Layihə çərçivəsində gənc sahibkarlar tərəfindən istehsal olunan məhsulların sərgisinin və əmək yarmarkalarının təşkili də nəzərdə tutulur.

**Elbrus CƏFƏRLİ**

# «Yaşıl kart» sistemi populyarlıq qazanır

«Yaşıl kart» sistemi xarici avtonəqliyyat vasitələrinin iştirakı ilə baş verən yol-nəqliyyat hadisələri zamanı zərər çəkmiş şəxslərin tələblərini hadisənin baş verdiyi ölkənin daxili qanunvericiliyi ilə nəzərdə tutulmuş şərtlərə və qaydalara uyğun olaraq tənzimləyir. Bu məqsədlər üçün sistemə üzv büroların qarşılıqlı zəmanəti əsasında avtomobil nəqliyyatı vasitələri ilə xarici ölkələrə səfər edən sürücülərin səfər ərzində mülki məsuliyyətini sığortalayan vahid təminat sistemi təşkil edilir. Sistemin əhatə etdiyi xarici ölkələrə səfər edən sürücülərin öz ölkələrindəki sığortaçılardan aldıqları «Yaşıl kart» bütün səfər boyunca mülki məsuliyyətin tam sığortalanmasını nəzərdə tutur, sürücünü səfər etdiyi xarici ölkənin sərhədində yeni mülki məsuliyyət sığortası almaq tələbindən azad edir. Hazırda 48 ölkə «Yaşıl kart» sisteminin üzvüdür.

Azərbaycan Respublikasında milli «Yaşıl kart» bürosunun funksiyalarını İcbari Sığorta Bürosu (İSB) həyata keçirir. «Yaşıl kart» müqaviləsi yalnız Azərbaycan Respublikasında qeydiyyatdan keçmiş və sahibinin mülki məsuliyyəti «İcbari sığortalar haqqında» Qanuna uyğun olaraq sığortalanmış avtonəqliyyat vasitələri üçün rəsmiləşdirilə bilər. «Yaşıl kart» müqaviləsi fiziki şəxs tərəfindən bağlandıqda şəxsiyyət vəsiqəsi, hüquqi şəxs tərəfindən bağlandıqda isə hüquqi şəxsin dövlət qeydiyyatı haqqında şəhadətnamə, nəqliyyat vasitəsinin dövlət qeydiyyatı şəhadətnaməsi, sürücülük vəsiqəsinin əsli tələb olunur. «Yaşıl kart» müqaviləsi 1,3, 6 və 12 ay müddətinə bağlanılır. Sığorta məbləğləri isə avtomobilin mühərrikinin həcmi və müqavilənin bağlanma müddətinə görə dəyişir.

Büronun məlumatına görə, indiyədək «Yaşıl kart» sistemi çərçivəsində fəaliyyət göstərmək hüququ olan sığortaçılar tərəfindən 6 ay ərzində 2271 beynəlxalq sığorta müqaviləsi bağlanıb. Təkcə iyun ayında bağlanmış beynəlxalq sığorta müqavilələrinin sayı 827 olmuş, sığorta haqları isə 63.676 manat təşkil etmişdir. Müqavilələrin 703-ü minik, 62-si yük, 52-si qoşqu, 8-i avtobus, 2-si isə motosiklet kateqoriyası üzrə olan nəqliyyat vasitələri ilə bağlı olmuşdur.

**6 ay ərzində bağlanan «Yaşıl kart» müqavilələrinin sayı**




Qeyd edək ki, «Yaşıl kart» sistemi 1949-cu ildə Birləşmiş Millətlər Təşkilatının Avropa İqtisadi Komissiyasının Quru Nəqliyyatı Komitəsinin Yol Nəqliyyatı üzrə İşçi Qrupu tərəfindən üzv ölkələrin hökumətlərinə göndərilmiş tövsiyə əsasında təsis edilmiş və 1 yanvar 1953-cü ildən tətbiq olunmağa başlamışdır. Əksər Avropa ölkələri, habelə Rusiya, Türkiyə, Ukrayna, Belarus, İran, Mərakeş və s. ölkələrin müvafiq bürolarının daxil olduğu «Yaşıl kart» sistemi avtonəqliyyat vasitələri sahiblərinin mülki məsuliyyəti üzrə beynəlxalq sığorta təminatı sistemi kimi fəaliyyət göstərir.

**AYTƏN**

# İtaliyalı jurnalist Azərbaycanın iqtisadi potensialı barədə...

İtaliyada ixracın təşviqi ilə bağlı «Exportiamo.it» internet saytında jurnalist Culiyano Bifolkinin Azərbaycanla bağlı iki məqaləsi yayılıb. «Azərbaycan-İtaliya: enerji tərəfdaşlığı və ticarət əlaqələri hər zaman güclüdür» adlı məqalədə müəllif iki ölkə arasında münasibətlərin möhkəm əsaslarının 2014-cü ildə Prezident İlham Əliyevin İtaliyaya rəsmi səfəri çərçivəsində Baş nazir Matteo Renzi ilə birgə qəbul etdiyi «Azərbaycan Respublikası ilə İtaliya Respublikası arasında strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamə»də öz əksini tapdığını bildirir.

Azərbaycan-İtaliya iqtisadi əlaqələrinə toxunulan məqalədə İtaliyanın Azərbaycanın birinci tərəfdaşı olduğu, TAP layihəsinin həyata keçirilməsi ilə əlaqələrin daha da genişlənəcəyi və İtaliyanın Avropanın enerji bazarında rolunun möhkəmlənəcəyi qeyd edilir. İyulun 13-də Romada keçirilmiş Azərbaycan-İtaliya Hökumətlərarası Komissiyasının iclası, bu çərçivədə təşkil edilmiş biznes forumu haqqında məlumat verilən yazıda həmin tədbirlərdə diqqətin həmçinin Azərbaycan iqtisadiyyatının şaxələndirilməsi, xüsusən də alternativ enerji, infrastruktur, logistika, aqrosənaye və əczaçılıq sahələrində İtaliya şirkətləri üçün mövcud imkanlara verildiyi vurğulanır. Müəllif Azərbaycanın İtaliyadakı səfiri Məmməd Əhmədzadəyə istinadla 2010-cu ildən bəri İtaliyadan Azərbaycana ixracın üç dəfə artığını və əlaqələrin daha da inkişafı üçün potensialın böyük olduğunu diqqətə çatdırır.

«Azərbaycan iqtisadiyyatını şaxələndirmək üçün xarici tərəfdaşlar axtarışındadır» adlı digər məqalədə isə müəllif ölkəmizin müstəqilliyini bərpa etdiyi dövrdən etibarən həyata keçirdiyi neft strategiyası, qazandığı iqtisadi nailiyyətlər, «Cənub qaz dəhlizi» layihəsi, iqtisadiyyatın şaxələndirilməsi istiqamətində görülən tədbirlər barədə məlumat verir. Həmçinin, Azərbaycanın əlverişli coğrafi mövqeyə malik olduğu diqqətə çatdırılaraq önəmli logistika mərkəzinə çevrilməsi imkanlarından bəhs edilir. Bu istiqamətdə həyata keçirilən Bakı-Tbilisi-Qars dəmir yolu, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, Trans-Avrasiya Super İnformasiya Magistralı kimi layihələr də qeyd olunur.

Məqalədə, həmçinin, Azərbaycanda kənd təsərrüfatı məhsullarının istehsalı, ölkəmizin önəmli ərzaq ixracatçısına çevrilməsi potensialı vurğulanır.

## vergi təqvimi

| İYUL | | | | | | |
|---|---|---|---|---|---|---|
| I | II | III | IV | V | VI | VII |
| | | | | 1 | 2 | **3** |
| 4 | 5 | 6 | 7 | 8 | 9 | **10** |
| 11 | 12 | 13 | 14 | **15** | 16 | **17** |
| 18 | 19 | **20** | 21 | 22 | 23 | **24** |
| 25 | 26 | 27 | 28 | 29 | 30 | **31** |

*Qeyd: Verginin ödənilmə və bəyannamənin (o cümlədən arayışın) verilmə müddətinin sonuncu günü təqvimdə yaşıl rənglə qeyd edilmişdir. Həmin gün istirahət və ya bayram gününə düşdüyü halda, növbəti iş gününə keçirilir.*

**Ödənilən vergi:**

15 iyul - «(1)» və «(2)».

20 iyul - «(1-1)», «(1-2)», «3», «4», «7», «8», «9», «(9-1)», «10.1», «10.2», «10.3» və «11».

**«(1) və (2)» - Gəlir və mənfəət vergisi:** Gəlir və mənfəət vergisi üzrə hesabat dövrü təqvim ilidir. Hüquqi şəxslər və fərdi sahibkarlar rüb qurtardıqdan sonra 15 gündən gec olmayaraq cari ödəmələri dövlət büdcəsinə ödəməlidirlər. Bələdiyyə mülkiyyətində olan müəssisə və təşkilatlar mənfəət vergisini yerli büdcəyə (bələdiyyə büdcəsinə) ödəyirlər. Cari vergi ödəmələri vergi ili üçün vergi ödəyicisindən tutulan verginin məbləğinə aid edilir. Vergi ödəyicisi il ərzində cari vergi ödəmələrinin məbləğini öz seçiminə əsasən aşağıda göstərilən iki mümkün metoddan birinə uyğun müəyyənləşdirə bilər.

*Birinci metod:* Hər rüb üçün cari ödəmələrin məbləği əvvəlki vergi ilində hesablanmış verginin 1/4 hissəsi məbləğində müəyyən edilir.

*İkinci metod:* Cari rübdəki gəlirin məbləğini keçən ilin ümumi gəlirində (gəlirdən çıxılan məbləğlər nəzərə alınmadan) verginin xüsusi çəkisini göstərən əmsala vurmaqla müəyyən edilir.

Bu zaman vergi ödəyicisi il ərzində cari vergi ödəmələrinin məbləğini müəyyənləşdirməyin yuxarıdakı iki mümkün metodundan birini seçir və hər il aprel ayının 15-dən gec olmayaraq bu barədə vergi orqanına məlumat verir. Vergi ödəyicisi cari vergi ödəmələrinin məbləğini müəyyənləşdirmək üçün tətbiq etdiyi metod barədə məlumat vermədiyi halda, vergi orqanı birinci metodu tətbiq edir.

Vergi ödəyicisi cari vergi ödəmələrinin məbləğini müəyyənləşdirmək üçün ikinci metodu seçdiyi halda, hər rüb başa çatdıqdan sonra 15 gün ərzində mənfəətdən və ya gəlirdən hesablanmış cari vergi məbləği barədə vergi orqanına arayış təqdim etməlidir, əks halda, vergi orqanı birinci metodu tətbiq edir.

Əvvəlki vergi ilində fəaliyyəti olmayan və növbəti vergi ilində fəaliyyət göstərən, habelə yeni yaradılmış və fəaliyyət göstərən vergi ödəyiciləri mənfəət və ya gəlir vergisi üzrə cari vergi ödəmələrini təqvim ili ərzində rüblər üzrə artan yekunla hesablamalı, cari vergi ödəmələrinin məbləği mənfəətdən və ya gəlirdən verginin məbləğinin 75 faizindən az olmamalı, rüb başa çatdıqdan sonra 15 gün ərzində cari vergi ödəmələrini aparmalı və rüb ərzində mənfəətdən və ya gəlirdən hesablanmış cari vergi məbləği barədə vergi orqanına arayış təqdim etməlidir.

**«(1-1)»- Gəlir vergisi (xüsusi notariuslar üzrə):** Xüsusi notariusların gəlir vergisi üzrə hesabat dövrü rübdür. Xüsusi notariuslar tərəfindən hər ay ərzində aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) 10 faiz dərəcə ilə gəlir vergisi hesablanmalı, hesablanmış vergi məbləği isə növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir.

Xüsusi notariuslar tərəfindən aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) hesablanan gəlir vergisi barədə «Xüsusi notariusun gəlir vergisi bəyannaməsi» hər rüb başa çatdıqdan sonra növbəti ayın 20-dən gec olmayaraq vergi orqanına təqdim edilməlidir.

**(«1-2») - Gəlir vergisi (İdman mərc oyunları üzrə):** İdman mərc oyunlarından uduşlar əldə edən şəxsdən ödəmə mənbəyində tutulan gəlir vergisi üzrə hesabat dövrü aydır. İdman mərc oyunlarından uduşlar əldə edən şəxsə ödəmələr verən şəxslər ödəmə mənbəyində vergini tutmağa, hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq hesablanmış vergini dövlət büdcəsinə köçürməyə və «İdman mərc oyunlarından uduşlar əldə edən şəxsdən ödəmə mənbəyində tutulan gəlir vergisinin bəyannaməsi»ni vergi orqanına verməyə borcludurlar.

**«3» - Əlavə dəyər vergisi:** ƏDV üzrə hesabat dövrü təqvim ayı sayılır. ƏDV ödəyən vergi ödəyicisi ƏDV-nin bəyannaməsini hər hesabat dövrü üçün, hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq qeydiyyatda olduğu vergi orqanına verir və vergini dövlət büdcəsinə ödəyir.

**«4» - Aksizlər:** Aksizlər üzrə hesabat dövrü təqvim ayıdır. Aksizli mallar istehsal edildikdə hər hesabat dövrü üçün vergi tutulan əməliyyatlar üzrə aksizlər hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməli və vergi orqanına bəyannamə verilməlidir.

**«7» - Yol vergisi** üçün hesabat dövrü təqvim ayı sayılır. Azərbaycan Respublikasının ərazisində avtomobil benzininin, dizel yanacağının və maye qazın istehsalı ilə məşğul olan fiziki və hüquqi şəxslər yol vergisini aylıq olaraq hesablayır və hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq «Yol vergisinin bəyannaməsi»ni vergi orqanına təqdim etməklə vergini dövlət büdcəsinə ödəyirlər.

**«8» - Mədən vergisi:** Mədən vergisi üzrə hesabat dövrü təqvim ayı sayılır. Mədən vergisinin ödəyicisi hesabat ayı üçün faydalı qazıntıların çıxarıldığı aydan sonrakı ayın 20-dən gec olmayaraq vergini ödəyir və bəyannamə verirlər. Yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi yerli (bələdiyyə) büdcəyə ödənilir və bələdiyyələrə mədən vergisinin bəyannaməsi verilir. Yerli əhəmiyyətli tikinti materiallarına kərpic-kirəmit gilləri, tikinti qumları, çınqıl xammalı aid edilir.

**«9» - Sadələşdirilmiş vergi:** Sadələşdirilmiş vergi üzrə hesabat dövrü rübdür. Sadələşdirilmiş verginin ödəyicisi olan şəxs hesabat rübündən sonrakı ayın 20-dən gec olmayaraq ödənilməli olan verginin məbləği haqqında vergi orqanına bəyannamə verir və həmin müddətdə vergini dövlət büdcəsinə ödəyir.

**(«9-1») - Sadələşdirilmiş vergi (Yaşayış və qeyri-yaşayış sahələrinin təqdim edilməsi üzrə):** Yaşayış və qeyri-yaşayış sahələrinin təqdim edilməsi üzrə müqavilələri təsdiq edən notarius sadələşdirilmiş vergini hesablayaraq 1 (bir) bank günü ərzində dövlət büdcəsinə ödəməyə və hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq «Yaşayış və qeyri-yaşayış sahələrini təqdim edən şəxslərdən notariuslar tərəfindən ödəmə mənbəyində tutulan sadələşdirilmiş vergi bəyannaməsi»ni vergi orqanına verməyə borcludurlar.

**«10.1» - Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi:** Muzdlu işlə əlaqədar ödəmə mənbəyində vergi tutan ƏDV və sadələşdirilmiş vergi ödəyicilərinin bu ödəmələr üzrə hesabat dövrü vergi ili, digər vergi ödəyicilərinin hesabat dövrü isə rübdür.

Muzdla işləyən fiziki şəxslərə ödəmələr verən hüquqi şəxslər və fərdi sahibkarlar muzdla işləyən fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisini hesablamalı və hesablanmış məbləği növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergilər barədə bəyannaməni ƏDV və sadələşdirilmiş verginin ödəyiciləri hesabat ilindən sonrakı ilin yanvar ayının 31-dən gec olmayaraq, digərləri isə hesabat rübü başa çatdıqdan sonra növbəti ayın 20-dən gec olmayaraq vergi orqanına təqdim etməlidirlər.

**«10.2» - Ödəmə mənbəyində tutulan digər vergilər:** ƏDV və sadələşdirilmiş verginin ödəyicilərinin muzdlu işlə əlaqədar aparılan ödəmələri istisna olmaqla, ödəmə mənbəyində tutulan digər vergilər üzrə hesabat dövrü rübdür.

Hüquqi şəxslər və fərdi sahibkarlar qeyri-dövlət pensiyaları və ödəmə mənbəyində vergiyə cəlb olunmalı digər ödəmələri verərkən bu gəlirlərdən vergini tutmalı, tutulmuş məbləği gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə köçürməli və həmin müddətdə də bəyannaməni vergi orqanına təqdim etməlidirlər.

**«10.3» - Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə ödəmə mənbəyində tutulan vergi:** Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə aparılan ödəmələrdən ödəmə mənbəyində tutulan verginin hesabat dövrü rübdür. Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə sığorta haqları ödəyən sığortaçılar fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisi hesablamalı, hesablanmış vergini növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməli və gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq bəyannaməni vergi orqanına təqdim etməlidirlər.

**«11» - Dövlət rüsumu:** Dövlər rüsumu üzrə hesabat dövrü rübdür. Notariat hərəkətlərinə görə dövlət rüsumu notarius tərəfindən qəbul edilərək iki bank günü ərzində, Azərbaycan Respublikasının xarici ölkələrdəki diplomatik nümayəndəliklərində aparılan konsul əməliyyatları üçün alınan dövlət rüsumu bir ay ərzində, digər dövlət rüsumları isə tutulduqdan sonra bir bank günü ərzində dövlət büdcəsinə köçürülür.

«Dövlət rüsumu haqqında» Qanunda nəzərdə tutulmuş dövlət rüsumunu tutan şəxslər hesabat rübündən sonrakı ayın 20-dək dövlət rüsumunun tutulması barədə hesabatları vergi orqanına təqdim etməlidirlər.

beynəlxalq panoram



# Vankuver şəhərində boş evlər vergiyə cəlb oluna bilər

Kanadanın cənub-qərbində yerləşən bu şəhərin meri boş saxlanılan şəhər əmlakının yeni vergi formasında cərimə-yə cəlb olunmasını təklif etmişdir. Gözlənilir ki, təklif olunan vergi ev sahiblərinin uzun müddət istifadəsiz saxladıqları, əksəriyyəti şəhərin mərkəzində yerləşən evləri kirayəyə verməsinə stimul yaradacaq. Şəhər meri bildirmişdir ki, mənzil yalnız pul qazanmaq üçün vasitə deyil: «Biz çalışırıq ki, öz əmlakına biznes kimi yanaşan vətəndaşlar müvafiq məbləğdə vergi ödəsinlər». Hazırda şəhər meri əyalət hökumətlərinə müraciət etməyi planlaşdırır ki, onlar vergi dərəcələrini müəyyən etmək üçün icarəyə verilməsi mümkün olan boş əmlakların təsnifatı ilə bağlı təkliflərini irəli sürsünlər. Son statistikaya əsasən, şəhərdə ümumilikdə 10.800 ev bütün il ərzində istifadəsiz qalır.

# İrlandiyada «vicdanlı vergi ödəyiciləri»nin sayı azalıb

Bu ölkədə daşınmaz əmlak vergisi 2013-cü ildən tutulur. Yığımın həcmi daşınmaz əmlak obyektinin qiymətinə mütənasib qaydada müəyyənləşdirilir və ildə orta hesabla 280 avro təşkil edir. İrlandiyada daşınmaz əmlak vergisi haqqında qanunun təsir dairəsinə düşən ümumilikdə 1,7 milyon ev təsərrüfatı var. Lakin son vaxtlar əmlak vergisini yayındıranların sayında artım özünü göstərir. 2015-ci ildə 56 min 200 nəfər, yəni ümumi ödəyicilərin 3 faizi əmlak vergisini ödəməyib. Bu il isə vəziyyət xeyli pisləşib: 87 min nəfər özlərinin dövlətə ödəniş siyahısına bu maddəni daxil etməyib. Beləliklə, 2016-cı ildə daşınmaz əmlak vergisi ödəyən şəxslərin nisbəti 87 faiz təşkil edib.

Ekspertlər hesab edirlər ki, İrlandiyada daşınmaz əmlak vergisi ödəyicilərinin sayının azalmasının əsas səbəbi zibilin daşınması və su üçün tariflərin kəskin artırılmasıdır. «Chartered Accountants Ireland» qurumunun vergi bölməsinin rəhbəri Brayan Keeqanın sözlərinə görə, indi hökumət qəti tədbirlər həyata keçirməlidir ki, ölkə vətəndaşları cəzasızlığa ümid bağlamasınlar. Fiskal xidmətlərə vergiləri vətəndaşların əməkhaqqından, pensiyasından və ya bank hesablarından birbaşa tutmaq imkanı verilməlidir. Əgər bunu etmək çətin olarsa, iş hüquq-mühafizə orqanlarına təqdim olunmalıdır. Qeyd edək ki, 2015-ci ilin yanvarından bəri daşınmaz əmlak vergisinin ödənilməməsinə görə ölkədə 3 min 55 iş qaldırılıb.

# İsveç infrastruktura vergi qoyulmasını müzakirə edir

Bu məsələ ilə bağlı hökumətin təşkil etdiyi xüsusi komissiya ölkədə infrastrukturun inkişafının maliyyələşməsinə yönəldilmiş yeni verginin tətbiqinin məqsədəuyğun olub-olmadığını araşdırmalıdır. Komissiya həmçinin infrastrukturun yaxşılaşdırılması sayəsində əhəmiyyətli dərəcədə gəlirlər əldə etmiş əmlak sahiblərinin də xüsusi vergiyə cəlb olunmasının zəruriliyini nəzərdən keçirməlidir. İctimai nəqliyyat infrastrukturunun inkişaf etdirilməsinə özəl investorların cəlb olunması üsulları da komissiyanın təhlil edəcəyi məsələlər sırasındadır. Maliyyə Nazirliyindən bildirilmişdir ki, komissiya hansı sahibkarların və konkret olaraq hansı növdə əmlakın potensial vergi ödəyicisi olacağını əsaslandırmalı, həmçinin toplanan vergilərin hansı infrastruktur obyektlərinin maliyyələşdirilməsinə yönəldilməsini araşdırmalıdır. Hökumət tərəfindən o da qeyd edilmişdir ki, bələdiyyə vergisi ödəyən vətəndaşlar əlavə yığımları ödəməyəcəklər. Komissiyanın gələn ilin fevral ayında nəticələri ictimaiyyətə təqdim edəcəyi, tam hesabatın isə 2018-ci ilin əvvəllərində nəşr olunacağı gözlənilir.

# Rusiyada elektron xidmətlər vergiyə cəlb olunacaq



Dövlət Duması tərəfindən qəbul edilən qanun layihəsinə görə, xarici şirkətlərin hamısı Rusiya Federasiyası ərazisində kontent satışına, eləcə də elektron xidmətlərin göstərilməsinə aidiyyəti olan bütün əməliyyatlardan ƏDV ödəməyə borcludur. Qanun layihəsinin qəbulu yerli şirkətlər ilə Rusiya ərazisində internet vasitəsilə biznes aparan xarici təşkilatların mövqelərini bərabərləşdirməyə yönəldilib. Bundan əlavə, siyahıya reklam sahəsində xidmətlər, pullu elanların yerləşdirilməsi, video və audio materiallardan istifadə, elektron resursların satışı və s. də daxildir.

Beləliklə, 2017-ci ilin yanvar ayının 1-dən Rusiyanın Vergi Məcəlləsinə «Elektron xidmətlər» anlayışı əlavə ediləcək və həmin xidmətlərin siyahısı açıqlanacaq. Qanun layihəsinin müddəalarına əsasən, bu cür xidmətlərin göstərilmə yeri onun alıcısının yaşadığı ərazi hesab ediləcək. ƏDV ödəyicisi olan xarici təşkilatlar ələqə Rusiya Federal Vergi Xidmətinin saytı vasitəsilə həyata keçiriləcək. Uçota durmaq üçün vergi ödəyicisi sadə elektron formanı dolduracaq, bundan sonra ona VÖEN veriləcək və ƏDV ödəyicisinin «şəxsi kabinetinə» giriş imkanı yaradılacaq. Bundan sonra isə bəyannamələrin təqdim edilməsi, məktubların göndərilməsi və qəbulu «şəxsi kabinet» vasitəsilə həyata keçiriləcək.

# Belarusun və Rusiyanın fiskal orqanları vergi yoxlamaları üzrə əməkdaşlıq edəcəklər

Belarus Vergilər və Yığımlar Nazirliyi ilə Rusiyanın Federal Vergi Xidməti vergi yoxlamalarının aparılmasında bir-birinə kömək etmək barədə razılığa gəlmişlər. Belarus tərəfindən verilən rəsmi məlumata görə, bu iki dövlət qurumunun ikinci birgə kollegiyasında vergi yoxlamalarının təşkili üzrə qarşılıqlı əməkdaşlığın genişləndirilməsinə dair məsələlər müzakirə edilmişdir. Müzakirələrdən sonra tərəflər paralel nəzarət tədbirlərinin keçirilməsi barədə razılığa gəlmişlər. Görüş zamanı digər məsələlərlə yanaşı, xarici şirkətlərin ƏDV-yə cəlb olunmasına da baxılmışdır.

Növbəti birgə kollegiyanın oktyabr ayında Belarus Respublikasında keçiriləcəyi planlaşdırılır.



# BVF İrlandiyanı vergi sistemini tarazlaşdırmağa çağırır

Beynəlxalq Valyuta Fondunun (BVF) İrlandiya hökumətinə müraciətində ölkədə iş yerlərinin dəstəklənməsi üçün vergi sisteminin tarazlaşdırılması xahiş edilmişdir: «Vergiqoymanın optimallaşdırılması büdcəyə əhəmiyyətli məbləğdə daxilolmaların cəlb edilməsinə və yeni iş yerlərinin açılmasına şərait yaradacaq. Tarazsızlığa səbəb olan birbaşa vergilərdən əməkhaqqı az olan şəxslər üçün universal sosial rüsumların daha aşağı dərəcələrlə gəlir vergisinə çevrilməsi yolu ilə birbaşa vergilərdən asılılığı azaltmaq zəruridir. Bu, orta gəlirli ev təsərrüfatlarının vergi yükünün azaldılmasına, qadınların əmək bazarında iştirakının genişləndirilməsinə və aşağı ixtisaslı işçilərin işsizlikdən yaxa qurtarmasına kömək edə bilər».

BVF-nin müraciətində qeyd olunmuşdur ki, birbaşa vergilərdən aşağı büdcə daxilolmalarını vahid ƏDV-nin tətbiqi hesabına kompensasiya etmək mümkündür.

krossvord



**Yuxarıdan aşağı:** 1.Riyaziyyatçı alim, Kaliforniya Universitetinin professoru; 2.Futbolda vəziyyət; 3.Pişikkimilər fəsiləsinin qar bəbirləri cinsinə aid heyvan növü; 4.Qədim Roma memarlığında kirayə üçün nəzərdə tutulan çoxmərtəbəli yaşayış evi; 5.Hicri təqvimində aylardan biri; 6.RF-nin Kalininqrad vilayətində şəhər; 7.Yamaykadan 290 km şimal-qərbdə yerləşən ada; 13.Avropanın əksər ölkələrinin ümumi pul vahidi; 15.Formula-1-in alman pilotu; 16.Kiçik Asiyada antik şəhər; 17.Tibdə, xüsusilə psixatriyada hərəki pozğunluğunun bir növü. Hərəkətsizlik, taqətsizlik, halsızlıq, qıcığa qarşı reaksiya sönüklüyü; 18.Bir sıra ölkələrdə xırda pul vahidi; 20.Xəzər dənizində yerləşən, Azərbaycana məxsus ada; 21.Polineziya xalqı. **Soldan sağa:** 1.Elektrik dövrəsində gərginliyi sabit saxlayan yarımkeçirici cihaz; 8.İctimai nəqliyyat növü; 9.Qıpçaq əsilli Qızıl Orda sərkərdəsi; 10.Yunanıstanın cənub-şərqində şəhər; 11.İsveçrənin cənub-qərbində şəhər; 12.Azərbaycan kinorejissoru, ssenaristi, Azərbaycan SSR Dövlət mükafatı laureatı (1978), Azərbaycanın xalq artisti. «Bir cənub şəhərində», «Babək», «Nizami» kimi populyar filmlərin rejissorunun adı; 14.Heyvan növü; 19.Orta əsrlərdə Avropada əmlakın (əsas etibarilə torpaq mülkiyyətinin) yalnız böyük oğula, ya da nəslin ağsaqqalına keçməsi haqda varislik qaydası; 21.Tanınmamaq və ya müdafiə məqsədi ilə üzə geyinilən əşya; 22.RF-nin Yaroslavl vilayətində çay; 23.Mübahisə, müzakirə, disput və s. zamanı birinin fikrinə, mülahizəsinə etiraz, yaxud onları təkzib edən şəxs; 24.Hər tərəfdən su ilə əhatə olunmuş, təbii yolla yaranan quru torpaq sahəsi; 25.İngiltərənin mərkəzi-qərb bölgəsində şəhər.



*«Bir cənub şəhərində» filmindən epizod*

**Tərtib etdi: Rafael**

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Driada; 2.Klarnet; 3.Rioni; 4.Takoma; 5.Aktiv; 6.Dəvəçi; 9.Elti *(dağ)*; 13.Çula *(xaqan)*; 15.Ekvador; 16.Akkord; 17.Əzrail; 18.Plenum; 20.Tapir; 21.Stayn *(Gertruda)*. **Soldan sağa:** 1.Dekorator; 5.Aid; 7.İvanovka; 8.Stiv *(Cobs)*; 10.Dendi; 11.Maleviç *(Kazimir)*; 12.İtoçu; 14.Diler; 19.Kataliz; 21.Sevil *(Zeynalova)*; 22.Olpa; 23.Qabardin; 24.Dər; 25.Palindrom.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

**Təsisçi:** Azərbaycan Respublikası Vergilər Nazirliyi

**Baş redaktor:** Anar Əliyev anar.eliyev@taxes.gov.az

**Baş redaktor müavini:** Məti Osmanoğlu redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

**Ünvan:** AZ 1141, Bakı ş., Əbdürrəhim bəy Haqverdiyev küç., 60

**Telefon:** 012 403 87 89, 012 403 87 95 (faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

**Tiraj: 10000**

idman

# Güləşçilərimiz Qran-pri turnirini əla nəticələrlə başa vurdular



**Mötəbər turnirdə 7 qızıl, 2 gümüş medal qazanan Azərbaycan güləşçiləri «Rio-2016»ya ciddi hazırlaşdıqlarını nümayiş etdirdilər**

İyulun 2-də Almaniyanın Dortmund şəhərində sərbəst və yunan-Roma güləşi üzrə Qran-pri turnirinə start verilib. İlk yarış günündə 65, 74, 86 və 97 kiloqram çəkidə sərbəst, 66, 75, 85 və 98 kiloqram çəkidə yunan-Roma güləşçiləri mübarizə aparıblar. Güləşçilərimiz günü 4 qızıl və 1 gümüş medalla başa vurublar.

Yunan-Roma güləşi yarışlarındakı təmsilçimiz Rafiq Hüseynov (75 kq) İsveç, Çexiya və ABŞ-dan olan rəqiblərini tam üstünlüklə məğlub edərək finala yüksəlib. O, finalda Rusiya təmsilçisi Çingiz Labazanovla gərgin keçən görüşü qalib başa vurub və turnirin qızıl medalını qazanıb.

Sərbəst güləş yarışlarında 65 kiloqram çəki dərəcəsində mübarizə aparan Olimpiya çempionumuz Toğrul Əsgərov mübarizəyə 1/4 finaldan başlayıb və ardıcıl olaraq Almaniya və Türkiyədən olan rəqiblərini məğlub edərək finala yüksəlib. Həlledici görüşdə ABŞ təmsilçisi Frank Molinaronu məğlub edən Toğrul turnirin qızıl medalına sahib olub. Yarışda 86 kiloqram çəkidə mübarizə aparan Nurməhəmməd Hacıyev ardıcıl olaraq Belarus, Almaniya və Polşadan olan idmançılar üzərində inamlı qələbə qazanaraq finala yüksəlib. Olimpiya çempionumuz Şərif Şərifov isə finala qədər Almaniya, ABŞ və Qazaxıstandan olan rəqiblərini üstələyib. Şərif Şərifovun zədə səbəbindən final görüşünə çıxmaması ilə Nurməhəmməd Hacıyev turnirin qızıl medalına yiyələnib. Turnirdə 97 kiloqramda mübarizə aparan komandamızın kapitanı Xetaq Qazyumov da bütün rəqiblərini üstələyərək finala yüksəlib. Fransa və Türkiyədən olan rəqiblərini asanlıqla üstələyən Xetaq yarımfinalda sonuncu dünya çempionu - ABŞ təmsilçisi Kyle Snyderlə qarşılaşıb. Gərgin keçən görüş güləşçimizin üstünlüyü ilə başa çatıb. Xetaq Qazyumov finalda Polşa təmsilçisi Radoslav Baran ilə görüşü də qalib başa vurub və turnirin qızıl medalını qazanıb.

Turnirin ikinci - sonuncu günündə 57, 61, 70 və 125 kiloqram çəki dərəcəsində sərbəst güləşçilər yarışıb. Pəhləvanlarımız günü üç qızıl və bir gümüş medalla başa vurublar. 61 kiloqram çəki dərəcəsində mübarizə aparan Hacı Əliyev yarışa dörddəbir final mərhələsindən start verib. Özbəkistan və Almaniyadan olan rəqiblərini böyük fərqlə üstələyən güləşçimiz finala yüksəlib. Son görüşdə Polşadan Krustof Bienkovskini də üstələyən H.Əliyev turnirin qızıl medalını qazanıb. Digər güləşçimiz Gitinomaqomed Hacıyev (70 kq) Türkiyə və Qazaxıstandan olan rəqiblərindən güclü olub və finala yüksəlib. Finalda Almaniya təmsilçisi Vickel Lennardı da məğlub edən güləşçimiz turnirin qızıl medalına yiyələnib. Cəmaləddin Məhəmmədov (125 kq) isə komanda yoldaşlarından fərqli olaraq bir görüş artıq keçirib. Mübarizəyə səkkizdəbir finaldan qoşulan idmançımız Qazaxıstan, Ukrayna və Polşadan olan rəqiblərini məğlub edib. Finala yüksələn təmsilçimiz son görüşdə Qazaxıstan idmançısı Daulet Şabanbayla qarşılaşıb. Rəqibini məğlub edən C.Məhəmmədov fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Yarışda 57 kiloqram çəkidə mübarizəyə qoşulan Mircəlal Həsənzadə də yarışa dörddəbir finaldan başlayıb. Güləşçimiz ardıcıl olaraq Almaniyanın iki idmançısını məğlub edib və finala yüksəlib. Finalda ABŞ idmançısı Denis Danielə uduzan güləşçimiz gümüş medalla kifayətlənib.

# Milli komandamız Avropa Liqasının qalibidir

İyulun 3-də qadın voleybolçulardan ibarət Azərbaycan millisi Avropa Liqasının final mərhələsi çərçivəsində Bakı İdman Sarayında Slovakiya yığması ilə qarşılaşıb. İtaliyalı baş hakim Giorgio Qnaninin idarə etdiyi oyunun ilk seti millimizin 25:15 hesablı üstünlüyü ilə başa çatıb. İkinci setdə də voleybolçularımız fərqləniblər - 25:22. Üçüncü setdə Azərbaycan voleybolçuları 25:20 hesabı ilə qalib gələrək matçın taleyini həll ediblər. Bununla da görüş Azərbaycan millisinin 3:0 hesablı qələbəsi ilə yekunlaşıb.

Qeyd edək ki, komandalar arasında iyunun 30-da Slovakiyada keçirilən ilk oyunda millimiz 3:1 hesabı ilə qalib gəlmişdi. İki görüşün nəticəsinə görə, Azərbaycan millisi Avropa Liqası yarışlarının qalibi olub.



## İbrahimoviç «Mançester Yunayted»də...



İsveç yığması və Fransanın PSJ futbol klubu ilə bu mövsüm yollarını ayıran Zlatan İbrahimoviç artıq İngiltərə nəhənginin formasını geyinəcək. «Mançester Yunayted» klubu 35 yaşlı isveçli futbolçu ilə müqavilə imzaladığını rəsmən açıqlayıb. Hələ ki, İngiltərə klubu ilə birillik müqaviləyə qol çəkən İbrahimoviç yenidən Joze Mourinyonun rəhbərliyi altında çıxış edəcək. Onlar İtaliyanın «İnter» komandasında da birgə olub, ölkə çempionluğunu qazanıblar.

Qeyd edək ki, Zlatan karyerası çərçivəsində dörd ölkədə - Fransa ilə yanaşı, Hollandiyada «Ayaks»la, İtaliyada «Yuventus», «İnter» və «Milan»la, İspaniyada «Barselona» ilə çempion olub.

mozaika

# Təbiətə qarşı cinayətlərlə mübarizə gücləndirilir

ekologiya



BMT-nin dəstəklədiyi tərəfdaşlıq fondu çərçivəsində vəhşi təbiət obyektlərinin qeyri-leqal ticarətinə qarşı qlobal mübarizə proqramının maliyyələşdirilməsinə əlavə 40 milyon ABŞ dolları ayırmaq qərara alınıb. Vəsait Afrika və Asiyanın 19 ölkəsində brakonyerliyə və qaçaqmalçılığa qarşı mübarizə tədbirlərinə yönəldiləcək.

Qlobal Ekologiya Fondunun təsdiq etdiyi bu qərarın icrasına vəsait BMT İnkişaf Proqramı, Dünya Bankı, Asiya İnkişaf Bankı, Beynəlxalq Təbiətin və Təbii Sərvətlərin Mühafizəsi Birliyi, habelə BMT-nin Ətraf Mühit Proqramı və Dünya Vəhşi Təbiəti Mühafizə Fondu tərəfindən ayrılacaq.

Qlobal Ekologiya Fondu 10 ölkədə - Botsvana, Kamerun, Efiopiya, Qabon, Hindistan, İndoneziya, Mozambik, Konqo Respublikası, Tanzaniya və Zambiyada ekoloji cinayətlərə qarşı mübarizəyə dair layihələrin maliyyələşdirilməsi haqqında qərarı təsdiq edib. Hazırda yardım alan ölkələrin siyahısına Əfqanıstan, Keniya, Malavi, Mali, Filippin, Cənubi Afrika Respublikası, Tailand, Vyetnam və Zimbabve kimi ölkələrin adları da əlavə olunub.

BMT Ətraf Mühit Proqramının (UNEP) icraçı direktoru Ahim Ştayner deyib: «Təkcə heyvanlar və ekosistemlər deyil, insanlar da vəhşi təbiətə qarşı cinayətlərin qurbanı olur. Belə cinayətkar fəaliyyət iqtisadi bazanın dağılmasına, insan tələfatına gətirib çıxarır».

UNEP-in ötən həftə təqdim edilən məruzəsində deyilir ki, əvvəlki hesablamalarla müqayisədə iqtisadi xarakterli cinayətlərin sayı bir il ərzində 26 faiz artıb. Hazırda bu sahədə qeyri-leqal ticarətin gəlirləri artaraq 90-258 milyard ABŞ dollarına çatıb, halbuki 2014-cü ildə 70-213 milyard ABŞ dolları civarında idi.

Təbiət əleyhinə cinayətlər nəticəsində əldə olunan gəlir təqribən 3 milyard ABŞ dolları səviyyəsində qiymətləndirilən qanunsuz atıcı silah ticarətindən olan gəlirləri üstələyir. Yalnız narkotik qaçaqmalçılığı, pulun saxtalaşdırılması və insan alveri ilə məşğul olan cinayətkarlar daha böyük gəlir götürürlər.

# Mobil qurğular bədəndən enerji alacaq

texnologiya

Çin və ABŞ alimləri insanın hərəkətindən elektrik enerjisi hasil etməyə imkan verən elastik qurğu hazırlayıblar.

Corciya Texnologiya İnstitutu, Sinxua Universiteti və Çin Elmlər Akademiyası əməkdaşlarının texnologiyasının əsasını elektrik enerjisini sürtünmə ilə mexaniki işdən hasil edən triboelektrik nanogeneratorlar təşkil edir. Əvvəllər hazırlanan oxşar qurğular sərt konstruksiyaya malik olduğu üçün iş üçün adi bədən hərəkətindən istifadə edə bilmirdilər. Alimlər bu problemi elektrod rolunda elastik polimerə doldurulmuş keçirici mayenin (xörək duzu məhlulu) çıxış etdiyi triboelektrik nanogeneratorlar hazırlamaqla aradan qaldırmağa nail olublar. Triboelektrik yükün sıxlığını və effektiv sahəni artırmaq üçün polimerin daxili səthi təxminən 50 nanometr diametrli çıxıntılarla örtülüb. Belə generator 300 faizədək gərilmədə effektiv işləyə bilir, yüksək elastiklik isə onu istənilən formaya salmağa imkan verir.




Mütəxəssislər ümid edirlər ki, onların icad etdiyi texnologiya əksər daşınan qurğularda tətbiq ediləcək. Tədqiqat rəhbəri Çjon Lin Vanqın fikrincə, texnologiyadan, məsələn, bionik protezlərdə ötürücülərin enerji ilə təmini üçün istifadə etmək mümkün olacaq.

tarix

# Nadir sənədlər və tanış olmayan səhifələr

Azərbaycan Silahlı Qüvvələri Günü ərəfəsində «Sputnik Azərbaycan»ın mətbuat mərkəzində «Azərbaycan ordusunun yaranmasına dair nadir sənədlər və az məlum olan səhifələr» mövzusunda mətbuat konfransı keçirilib. Tədbirdə Əməkdar iincəsənət xadimi, sənədli filmlər rejissoru Ziya Şıxlinski Azərbaycan Milli Ordusunun yaradılmasına həsr olunmuş «Çətin günlərin xronikası» sənədli filminin çəkilişlərindən və həmin dövrün Silahlı Qüvvələrə aid az məlum olan sənədlərindən söhbət açıb.

Filmdə 1918-ci il hadisələrindən, Nuru Paşanın rəhbərliyi altında türk ordusunun Azərbaycanın köməyinə gəlməsindən söhbət açılır. Bildirilir ki, Birinci Dünya müharibəsi təzəcə qurtarmışdı, Rusiyada inqilabi hərəkat davam edirdi, cəbhədən qayıdan vəhşiləşmiş erməni dəstələri Bakının dinc əhalisinə divan tuturdular. Ermənilər həmin günlərdə Azərbaycanda 12 mindən çox adam öldürüblər. Türkiyə ordusu ölkədəki çətin vəziyyətə baxmayaraq, azərbaycanlı qardaşlarının köməyinə gəlib.

Filmdə nadir sənədlərdən istifadə edilib, tarixin açılmamış səhifələri işıqlandırılıb. Rejissorun sözlərinə görə, film Azərbaycan Milli Ordusunun yaradılmasının 95-ci ildönümünə həsr edilib. Film üzərində iş maraqlı olub, bəzi lazımi sənədlər Moskvada, Kinofotoarxivdə aşkar edilib.

Sənədli filmin əhəmiyyəti danılmazdır. Bu, həqiqəti dünyaya və gənc nəslə sənədlərin dili ilə çatdırmağa imkan yaradan canlı salnamədir. Ziya Şıxlinskinin film-portretləri İsmayıl Şıxlı, İmran Qasımov, Yusif Məmmədəliyev, Əliş Ləmbəranski və digər görkəmli şəxsiyyətlərə həsr olunub.



# Sürətli və ucuz «Wi-Fi»

şəbəkə

«Google»nin baş şirkəti «Alphabet» məlumatların simsiz ötürülməsi texnologiyasını işləyib hazırlayıb. Bu texnologiya yüksək sürətli (saniyədə 1 GB qədər) və kabelli qoşulmadan daha ucuzdur.

Bu barədə açıqlama verən «Alphabet» şirkətinin icraçı direktoru Erik Şmidt bildirib ki, mükəmməl mikroproseslər və radiosiqnalların daha dəqiq yönəldilməsi sayəsində internet kabelli versiyadan daha ucuz olacaq.

Nümayiş şəbəkəsini 2017-ci ildə Kanzas-Sitidə işə salmaq nəzərdə tutulur. Lakin şirkət bir neçə simsiz texnologiyanı sınaqdan çıxarır. Onlardan bəziləri istifadəçilərdən siqnalların qəbulu üçün xüsusi cihazlar tələb edə bilər.

## Müdriklər deyib ki...



*«Özünə hörmət qoya bilməyən - bədbəxt, özündən hədsiz razı olan isə – axmaqdır».*

*Gi de Mopassan (1850-1893)*